

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 63 (24.200)

*11 aprel 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əsasında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsi yaradılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2049 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.1-ci bəndin birinci cümləsindən "(yerli baş idarə, idarələr, şöbələr və bölmələr)" və ", habelə Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti" sözləri çıxarılsın;

2.2. 5.5-ci bəndin birinci cümləsində "bir birinci müavini və üç müavini" sözləri "müavinləri" sözü ilə əvəz edilsin;

2.3. 5.6.9-cu yarımbənddə "yerli baş idarə, idarə, şöbə və bölmələrin" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

2.4. 5.6.11-ci yarımbənddə "yerli baş idarə, idarə, şöbə və bölmələrin" sözləri "strukturuna daxil olan" sözləri ilə əvəz edilsin;

2.5. 5.7-ci bəndin birinci cümləsindən ", Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisindən" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 8 aprel 2023-cü il*

## Azərbaycan-Qazaxıstan qarşılıqlı fəaliyyətin, müttəfiqliyin keyfiyyətcə yeni səviyyəsində

### *Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana rəsmi səfər edib*

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasına rəsmi səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşıladılar.

* * *

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstanın paytaxtı Astanadakı "Akorda" Prezident Sarayında rəsmi qarşılanma mərasimi olub.

"Akorda" Prezident Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Qazaxıstanın nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Kasım-Jomart Tokayevə təqdim edildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Qazaxıstanın Dövlət himnləri səsləndi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Dövlət başçıları birgə foto çəkdirdilər.

* * *

Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Prezident **Kasım-Jomart Tokayev** dedi:

– Bizdə qəbul edildiyi kimi desək, "Xoş gəldiz".

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Prezident Kasım-Jomart Tokayev:** – Sizi rəsmi səfərdə görməyimizə şadıq. Mənim dəvətimi qəbul etdiyinizə görə minnətdarlığımı bildirmək istərdim. Keçən ilin avqust ayında mən Bakıya səfər etdim. Bu səfər olduqca səmərəli keçdi və ikitərəfli münasibətlərin inkişafına ciddi təkan verdi. İndi, necə deyərlər, saatları tutuşdurmaq, prezidentlərin tapşırıqlarının iki ölkənin hökumətləri tərəfindən necə icra edilməsini yoxlamaq zərurəti yaranıb.

Qeyd etmək istərdim ki, Azərbaycan Qazaxıstan üçün qardaş dövlətdir, çox yaxın dövlətdir. Biz öz tərəfimizdən ticari-iqtisadi, investisiya sahələrində və əlbəttə, siyasi arenada istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət üçün hərtərəfli əməkdaşlığı inkişaf etdirməkdən ötrü nə mümkündürsə edirik. Çox iş görülüb. Fikrimcə, geniş tərkibdə görüşdə bu barədə danışacağıq. Bundan əlavə, müvafiq nazirlərin məruzələrini dinləyəcəyik, onlar görülmüş işlər barədə hesabat verməlidirlər, əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair planlar cızacağıq.

Biz Sizin səfərinizə hazırlaşmışıq. Yəqin ki, eşitmisiniz, Qazaxıstan Teleradio Korporasiyası mənim tapşırığıma əsasən görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illiyinə həsr edilmiş xüsusi sənədli film hazırlayıb. Bu axşam onu qazax və rus dillərində göstərəcəklər.

Qazaxıstanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş markanın buraxıldığını bildirən Kasım-Jomart Tokayev Ulu Öndərin ölkələrimiz arasında əməkdaşlığın qurulması və inkişafındakı böyük tarixi rolunun xatırlandığını qeyd etdi. Qazaxıstan Prezidenti dövlət başçılarının birlikdə Astananın nüfuzlu rayonunda Ümummilli Lider Heydər Əliyevin adını daşıyan küçənin açılışını edəcəklərini bildirdi.



**Prezident Kasım-Jomart Tokayev:** – Əlbəttə, biz Cənubi Qafqaz regionunda lider rolu oynayan Azərbaycan ilə iqtisadi sahədə qarşılıqlı əlaqələrin, əməkdaşlığın inkişaf etdirilməsinə dair çox ciddi iş aparmaq əzmindəyik. Bizim aramızda hər hansı problem yoxdur. Yalnız məhz bu istiqamətdə irəli getmək arzusu var. Sizə Təşəkkür edirəm.

***

**Prezident İlham Əliyev** dedi:

– Hörmətli Kasım-Jomart Kemeliviç, ilk növbədə, dəvətə və qonaqpərvərliyə görə sağ olun.

Heydər Əliyevin xatirəsinə hörmətinizə görə bəri başdan öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Sizin tapşırığınıza əsasən Qazaxıstanda həm Heydər Əliyevin xatirəsinə, həm də Azərbaycan xalqına öz münasibətinizi bildirmək üçün görülən işləri qeyd etdiniz. Paytaxtınızın mərkəzi küçələrindən birinə Heydər Əliyevin adının veriləcəyinə görə, eləcə də filmə görə təşəkkür edirəm. Ümumiyyətlə, biz həmişə bütün Qazaxıstan xalqının ölkəmizə xeyirxah münasibətini hiss etmişik, yəqin ki, Siz də Azərbaycana rəsmi səfəriniz çərçivəsində bunu hiss etmisiniz. Bizim rəsmi səfərlər çərçivəsində belə tez-tez görüşməyimiz həm münasibətlərimizin xarakterinə, həm də ona dəlalət edir ki, daim əlaqə saxlamağımız zəruridir. Ona görə ki, biz müxtəlif beynəlxalq məkanlarda müntəzəm görüşürük, lakin ikitərəfli format ən səmərəli formatdır.

Sizin səfərinizdən bir ildən az vaxt keçib, lakin həm tapşırıqlarımızın icrasına nəzarət, həm də qarşılıqlı fəaliyyəti gücləndirmək üçün yeni addımlar atılması baxımından gündəliyə nəzər salmaq zəruridir. Siz qeyd etdiyiniz kimi, ölkələrimiz bir-birinə səmimi, qardaşcasına münasibət bəsləyirlər. Bu, ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı zəmindir. Əməkdaşlığın istiqamətlərinə gəldikdə isə onların sadalanması, yəqin ki, çox vaxt tələb edərdi, çünki bu istiqamətlər praktiki olaraq həyatımızın bütün sahələrini əhatə edir. Lakin, əlbəttə, indiki şəraitdə, təbii ki, ticari-iqtisadi, investisiya layihələri, nəqliyyat-logistika infrastrukturu və ölkələrimizin bu istiqamətlərdə səylərinin birləşdirilməsi ilə bağlı layihələr prioritet əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, mənimlə birlikdə çox nüfuzlu nümayəndə heyəti, çoxlu nazir, dövlət strukturlarının rəhbərləri gəliblər. Əminəm ki, qardaş Qazaxıstan torpağında olan nümayəndə heyətinin üzvləri də fəallıq göstərəcək, biz yaxşı nəticələrə nail olacağıq və görülmüş işlərə yekun vurmaq üçün növbəti həddi müəyyən edəcəyik. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

**Prezident Kasım-Jomart Tokayev:** – Mən əlavə etmək istərdim ki, Qazaxıstan statistikasına görə təkcə keçən il ərzində ölkələrimiz arasında ticarətin həcmi 40 faiz artaraq yarım milyard dolları ötüb.

***

Görüş əsnasında Azərbaycan ilə Qazaxıstan arasında ticarət dövriyyəsində 40 faiz artımın olması müsbət addım kimi qeyd edildi. Dövlət başçıları ölkələrimiz arasında ticarət dövriyyəsinin bir milyard dollara çatdırılması üçün imkanların olduğunu vurğuladılar.

Eyni zamanda görüşdə Qazaxıstan neftinin Azərbaycan ərazisindən ixracı, nəqliyyat-logistika imkanlarının daha da artırılması, kənd təsərrüfatı sahəsində əməkdaşlıq, həmçinin birgə investisiya layihələri məsələləri müzakirə olundu, Xəzər dənizinin dibi ilə fiber-optik xətlərin çəkilməsi istiqamətində də sürətli inkişafın olduğu qeyd edildi. Həmçinin dövlətlərimizin ikitərəfli siyasi dialoqunun yüksək səviyyədə olduğu, beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi vurğulandı.

Söhbət zamanı regional məsələlər haqqında da fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində atdığı addımlar barədə məlumat verdi.

Görüşdə Azərbaycanın nəqliyyat imkanlarının daha da genişləndirilməsi, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin və Bakı Limanının imkanlarının artırılması istiqamətində səylər barədə də məlumat verildi.

Prezident Kasım-Jomart Tokayev Qazaxıstanın nəqliyyat imkanlarının artırılması haqqında məlumat verdi.

Söhbət zamanı iki ölkənin nəqliyyat infrastrukturunun sinxronlaşdırılması, yüklərin daha sərbəst və sürətli keçidinin təmin edilməsinin önəmi qeyd olundu.

*Ardı 2-ci səhifədə*



Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü olub.

Dövlətimizin başçısı İlham Əliyevi salamlayan Prezident **Kasım-Jomart Tokayev** dedi:

– Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

Əsrlərboyu bizi sarsılmaz dostluq və qarşılıqlı hörmət telləri bağlayır. Tarixi köklər, coğrafi yaxınlıq və çoxillik sıx əlaqələr iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsi üçün zəmin olub. Biz qarşılıqlı faydalı münasibətlərin daha da inkişaf etdirilməsində maraqlıyıq. Bu bizim ümumi məqsədimizdir.

Azərbaycan bizim üçün, sadəcə, mühüm və etibarlı tərəfdaş deyil, qardaş, yaxın dövlətdir. Biz çoxəsrlik sarsılmaz dostluq, qarşılıqlı dəstək tellərinə güvənərək səmərəli dövlətlərarası əməkdaşlıq yaratmışıq. Bu gün bu əməkdaşlıq əsl strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edir. Ölkələrimiz arasında etimada əsaslanan fəal siyasi dialoq yaranıb. Hökumət səviyyəsində nizamlanmış iş aparılır, çoxtərəfli məkanlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyət həyata keçirilir. Bizdə sanballı müqavilə-hüquqi baza formalaşıb. Artıq 90-dan çox sənəd imzalanıb.

Keçən il biz strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə, habelə 2026-cı ilə qədər olan dövrdə əməkdaşlığın inkişafına dair kompleks proqram imzalamışıq. Bu gün də bir sıra mühüm sənədlər qəbul ediləcək. Bundan əlavə, Sizin səfəriniz çərçivəsində biz Ali Dövlətlərarası Şuranın təsis olunmasını təsbit edəcəyik. Bu, şübhəsiz ki, ikitərəfli münasibətlərə güclü təkan verəcək.

Ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətimizin əhəmiyyətli dərəcədə irəliləməsini məmnuniyyətlə qeyd etmək istərdim. Bu gün qeyd etdiyimiz kimi, əmtəə dövriyyəsi 40 faiz artıb və yarım milyard dollara çatıb. Fikrimcə, bu, sanballı nəticədir. Əminəm ki, iqtisadi potensialımız tam surətdə açıldıqca biz bu göstəricini bir milyard dollara çatdıra bilərik. Bundan ötrü energetika, nəqliyyat, logistika, IT, kənd təsərrüfatı, sənaye və digər sahələrdə ciddi ehtiyatlarımız var.

Mədəni-humanitar əlaqələr durmadan möhkəmlənir. Burada bizim milliyyətcə azərbaycanlı olan 130 min vətəndaşımız əsas əlaqələndirici vasilə kimi çıxış edir və onların bir hissəsi, bəlkə də, kiçik bir hissəsi bu gün görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfinə adlandırılmış küçənin açılışında iştirak edəcək. Biz onları məxsusi dəvət etmişik.

İki ölkənin mədəniyyət ongünlüklərinin keçirilməsi barədə razılaşmanı xüsusi vurğulamaq istəyirəm. Qazaxıstan mədəniyyət günləri artıq bu il keçiriləcək. Bu gün biz hörmətli Azərbaycan Prezidenti ilə birlikdə görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin adını daşıyan küçənin açılışını edəcəyik. Bu hadisəni Azərbaycan xalqının böyük oğlunun 100 illiyinə həsr edəcəyik.

Bu gün Heydər Əliyev haqqında "Əziz ömür" – "Görkəmli həyat" adlı sənədli filmin premyerası olacaq. Təbii ki, bu film bizim tapşırığımıza əsasən Qazaxıstan Teleradio Korporasiyası tərəfindən çəkilib. Qazax xalqının Azərbaycana hədiyyəsi – Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi ölkələrimizin səmimi dostluğuna və qarşılıqlı dəstəyinə daha bir parlaq sübutdur. Mənə bildiriblər ki, bu obyektin tikintisi kifayət qədər sürətlə həyata keçirilir. Fikrimcə, lap yaxın vaxtlarda biz bu obyektin fəaliyyətə başlamasını görə biləcəyik. Biz bundan sonra da hərtərəfli humanitar əlaqələri hər vasitə ilə inkişaf etdirmək, ortaq mənəvi-mədəni dəyərlər xəzinəsini zənginləşdirmək əzmindəyik.

Hörmətli İlham Heydər oğlu, Sizinlə məhdud tərkibdə danışıqlarda bizim gündəlikdəki bəzi aktual mövzuları ətraflı müzakirə etdik, dövlətlərimizin qarşılıqlı fəaliyyətinin yeni artım nöqtələrini müəyyənləşdirdik, beynəlxalq strukturlar çərçivəsində dialoqun möhkəmləndirilməsinə dair fikir mübadiləsi apardıq. Bütün bu məqamlar bizim bu gün imzalayacağımız birgə bəyanatda müvafiq şəkildə əks olunacaq.

Bir daha əmin olduğumu bildirirəm ki, Sizin Qazaxıstana səfəriniz böyük əhəmiyyət kəsb edir. Şübhəsiz ki, bu səfər ölkələrimiz arasında müttəfiqlik qarşılıqlı münasibətlərinin inkişafına güclü təkan verəcək. Sözü Sizə vermək istərdim.

***

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

– Sağ olun, hörmətli Kasım-Jomart Kemeleviç.

İlk növbədə, dəvətə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Mən yenidən qardaş Qazaxıstan torpağında olmağıma və Sizinlə dialoqumuzu davam etdirməyə çox şadam. Keçən ilin avqust ayında Sizin Azərbaycana səfəriniz barədə yaxşı xatirələrim var. Bu gün biz Sizinlə ilk görüşümüzdə məmnuniyyətlə qeyd etdik ki, qəbul etdiyimiz qərarlar həyata keçirilir. Əminəm ki, mənim Qazaxıstana səfərim çərçivəsində qəbul edəcəyimiz qərarlar da reallaşacaq.

Heydər Əliyevin xatirəsinin ehtiramla yad edilməsinə, Qazaxıstan paytaxtının mərkəzi küçələrindən birinə onun adının verilməsinə, Siz mənim atamın və Azərbaycan xalqının Ümummilli Liderinin xatirəsini ehtiramla yad etdiyinizə görə bir daha öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim.

İşğaldan azad edilmiş Qarabağda Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi tikilməsi barədə Sizin şəxsi qərarınıza görə də təşəkkürümü bildirmək istərdim. Mərkəzin tikintisi, həqiqətən, çox sürətlə gedir və fürsətdən istifadə edib Sizi bu mərkəzin açılışı mərasiminə dəvət etmək istəyirəm. Bu, xalqlarımızın dostluğunun və qardaşlığının yaxşı rəmzi olacaq, ona görə ki, biz dağıdılmış infrastrukturun, o cümlədən sosial infrastrukturun bərpa edilməsi üzrə çox böyük işlər görməliyik. Qardaş Qazaxıstanın belə bir təşəbbüsü, əlbəttə, bütün azərbaycanlılarda böyük təşəkkür hissi doğurur.

Biz münasibətlərimizin müsbət fonunu möhkəmlədiririk. Xalqlarımız arasında münasibətlərin böyük tarixi var və bu münasibətlər həmişə qardaşlar arasındakı kimi olub. Bu gün gələcəyimizi bu möhkəm təməl üzərində qururuq. Sizinlə müzakirə etdiyimiz əməkdaşlıq sahələrində, ilk növbədə, energetika, nəqliyyat-tranzit sahəsində çox böyük potensial var. Təsadüfi deyil ki, Qazaxıstan nümayəndə heyətində olduğu kimi, bizim nümayəndə heyətinin tərkibində də müvafiq strukturların rəhbərləri təmsil olunub. Onların məsələlərin konkret həll yollarını müzakirə etməkdən ötrü bütün bürokratik, inzibati maneələri aradan qaldırmaları Transxəzər dəhlizinin təkcə coğrafi və geosiyasi baxımdan deyil, həm də iqtisadi baxımdan cəlbediciliyi üçün yaxşı fürsət olacaq. Fikrimcə, bundan ötrü kifayət qədər imkan var.

Onu da qeyd etməyi zəruri sayıram ki, humanitar sahədə əməkdaşlıq birinci dərəcəli əhəmiyyət kəsb edir. Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri, Qazaxıstanda Azərbaycan mədəniyyəti günləri təşkil ediləcək. Bu, xalqlarımızı daha da yaxınlaşdıracaq, qədim tariximizi və mədəniyyətimizi daha da zənginləşdirəcək. Hesab edirik ki, məhz humanitar əlaqələr bizim dövlətlərarası münasibətlərin qurulmasının əsasıdır. Əlbəttə, qarşılıqlı maraq doğuran sahələr çoxdur. Biz, həqiqətən, qarşılıqlı fəaliyyətin, müttəfiqliyin keyfiyyətcə yeni səviyyəsinə qədəm qoyuruq və bu, bu gün imzalanacaq Bəyannamədə artıq əks olunub. Beləliklə, biz ölkələrimizin və xalqlarımızın uğurlu birgə gələcəyini bir çox onilliklər qədər irəlicədən müəyyən edirik.

Onu da qeyd etməyi vacib hesab edirəm ki, Qazaxıstan və Azərbaycan bütünlükdə öz xüsusi resurslarına güvənən, xarici köməkdən asılı olmayan və öz taleyini, öz gələcəyini özləri quran ölkələrdir. Bu da bugünkü dünya siyasətində ən mühüm amildir. Düşünürəm ki, bizim ölkələrimizin milli maraqlarının müdafiəsinə prinsipial yanaşma nümayiş etdirməyimiz də xalqlarımızın xarakterinə dəlalət edir. Dəvətə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Ümidvaram ki, bizim müəyyənləşdirdiyimiz bütün məsələləri geniş tərkibdə və bir qədər sonra daha ətraflı müzakirə edəcəyik. Sağ olun.

Prezident **Kasım-Jomart Tokayev:** – Təşəkkür edirəm. Ticarət, kənd təsərrüfatı, logistika və başqa sahələrdə əməkdaşlığın perspektivləri barədə Sizin dəyərləndirmələrinizlə razıyam.

***

Görüş əsnasında media və kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, bu sahədə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi vurğulandı. Qazaxıstan Dövlət Televiziyası tərəfindən Ulu Öndər Heydər Əliyevə həsr olunmuş filmin hazırlandığı və həmin filmin bu günlərdə Qazaxıstan Dövlət Televiziyasında nümayiş olunacağı bildirildi. Filmin, eyni zamanda Azərbaycan Televiziyasında nümayiş etdiriləcəyi də vurğulandı. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinin Qazaxıstanda dərin hörmət və ehtiramla yad olunduğu qeyd edildi.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin xatirəsinə göstərilən hörmət və ehtirama görə təşəkkürünü bildirdi.

Prezident Kasım-Jomart Tokayev Azərbaycan Prezidentinin səfərinin böyük əhəmiyyət daşıdığını vurğuladı, səfər çərçivəsində imzalanacaq sənədlərin və aparılan müzakirələrin ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə qalxmasına şərait yaratdığını qeyd etdi.

Görüş əsnasında Qazaxıstan tərəfindən hökumətlərarası komissiyanın rəhbəri bu günə qədər görülmüş işlər haqqında məruzə ilə çıxış etdi. Azərbaycan tərəfindən iqtisadiyyat naziri, rəqəmsal inkişaf və nəqliyyat naziri görülən işlər barədə məruzələrlə çıxış etdilər.

Həmçinin dövlət başçıları bu gün imzalanacaq sənədlər arasında Yüksəksəviyyəli Dövlətlərarası Şuranın yaradılmasını çox müsbət addım kimi qiymətləndirdilər. Bunun Azərbaycanla Qazaxıstan arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasının nümunəsi olduğu vurğulandı. Eyni zamanda Qazaxıstan Prezidentinin Azərbaycana səfəri zamanı imzalanmış sənədin ölkələrimiz arasında münasibətlərin məhz müttəfiqlik əsasında inkişafı üçün zəmin yaratdığı qeyd olundu.

Dövlət başçıları aidiyyəti üzrə nazirlərə tapşırıqlarını verdilər.

* * *

Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu" və dövlət başçılarının birgə bəyanatını imzaladılar.

"Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC ilə "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyəti arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyətinin baş direktoru Rauşan Kajibayeva imzaladılar.

"Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu arasında elmi və mədəni əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov və Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutunun direktoru Talqat Kaliyev imzaladılar.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Qazaxıstanın Xarici Ticarət Palatası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstanın Xarici Ticarət Palatasının İdarə Heyətinin sədri Ayan Yerenov imzaladılar.

"Azərbaycan Milli Elmlər Akademiyası və Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası arasında elm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli və "Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası" Respublika İctimai Birliyinin prezidenti Murat Jurinov imzaladılar.

"Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsi ilə Qazaxıstan Respublikasının "Otandastar Fondu" arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov və Qazaxıstan Respublikasının "Otandastar Fondu"nun prezidenti Abzal Saparbekulı imzaladılar.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Qazaxıstan Respublikasının informasiya və ictimai inkişaf naziri Darxan Kıdırali imzaladılar.

*Ardı 3-cü səhifədə*



Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Qazaxıstan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Kasım-Jomart Tokayevin bəyanatı**

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli xanımlar və cənablar.

Mən bu gün aparılmış tamformatlı danışıqların nəticələrini yüksək qiymətləndirirəm. Bu danışıqlar hər ikimizin ikitərəfli əlaqələri hər vasitə ilə möhkəmləndirmək əzmində olduğumuzu bir daha təsdiq etdi. Hörmətli İlham Heydər oğlu ilə səmimi şəraitdə əməkdaşlığımızın bütün aspektlərinə dair fikir mübadiləsi apardıq, necə deyərlər, regional və beynəlxalq problemlər barəsində saatlarımızı tutuşdurduq, iki ölkənin qarşılıqlı əlaqələrinin perspektivlərini və daha da dərinləşdirilməsi istiqamətlərini müzakirə etdik.

Bizim ortaq səylərimiz sayəsində son illərdə Qazaxıstan ilə Azərbaycan arasında münasibətlər daha açıq və hərtərəfli xarakter kəsb edib. Siyasi, ticari-iqtisadi, mədəni-humanitar əməkdaşlıq fəallaşıb. Yarım ildən bir qədər çox əvvəl biz strateji tərəfdaşlığın dərinləşdirilməsi və müttəfiqlik münasibətlərinin genişləndirilməsinə dair Bəyannamə, 2022-2026-cı illər üçün əməkdaşlığın inkişafına dair kompleks proqram və bir sıra başqa sənədlər imzaladıq. Hazırda bütün bu razılaşmalar ardıcıl olaraq həyata keçirilir. İkitərəfli münasibətlərin kompleks şəkildə möhkəmlənməsinə xidmət edən Ali Dövlətlərarası Şuranın təsis edilməsi mühüm qərar oldu. Bu gün imzalanmış bir sıra yeni sazişlər bizim çoxşaxəli tərəfdaşlığımıza əlavə impuls verəcək.

Qazaxıstan və Azərbaycan ticari-iqtisadi sahədə qarşılıqlı faydalı əsasda əməkdaşlıq edir. Biz məmnunluqla qeyd etdik ki, ötən ilin yekunlarına əsasən ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi yarım milyard dollara yaxınlaşıb. Lakin, əlbəttə ki, ticari-iqtisadi tərəfdaşlığın potensialı əsla tükənməyib. Biz ixrac-idxal malları nomenklaturunun daha da genişləndirilməsi üçün təsirli tədbirlər görmək barədə razılığa gəldik. Ölkələrimizin müvafiq strukturlarının əlaqələndirilmiş şəkildə fəaliyyəti, – söhbət bizim İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyadan, ticari-iqtisadi missiyadan, İşgüzar Şuradan, ticarət evlərindən gedir, – iqtisadi kooperasiyanı keyfiyyətcə yeni səviyyəyə çatdırmağa imkan verəcək. Bu baxımdan Transxəzər beynəlxalq nəqliyyat marşrutunun, belə adlandırılan "Orta Dəhliz"in potensialının tam üzə çıxarılması böyük əhəmiyyət kəsb edir. Söhbət logistika xidmətlərinin təkmilləşdirilməsindən, vahid nəqliyyat operatorlarının yaradılmasından, texniki və tarif şərtlərinin modernləşdirilməsindən, inzibati maneələrin aradan qaldırılmasından və qapalı logistik dövrənin formalaşmasından gedir.

2022-2027-ci illərdə Orta Dəhlizin inkişafına dair yol xəritəsinin səmərəli reallaşdırılması da böyük əhəmiyyət kəsb edir. Biz razılaşdıq ki, bu marşruta artan maraqdan tam yararlanmaq və onun infrastrukturunun inkişafına üçüncü ölkələri cəlb etmək lazımdır. Bütün bu tədbirlər, habelə beynəlxalq tərəfdaşlarımızla sıx qarşılıqlı əlaqə Şərq-Qərb istiqamətində yüklərin çatdırılmasının sabitliyini və operativliyini təmin etməyə imkan verəcək.

Biz energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirdik. Enerji resurslarının dünya bazarlarına çatdırılmasının daha da şaxələndirilməsi bu gün bizim prioritet vəzifəmizdir. Bildiyiniz kimi, bizim razılaşmalar sayəsində bu il Qazaxıstan neftinin ilk partiyası Azərbaycandan keçməklə göndərilib.

Növbəti addım tədarük həcminin artırılması və bu işlərə uzunmüddətli sabit xarakter verilməsidir. Fürsətdən istifadə edib bu mühüm təşəbbüsləri şəxsən dəstəklədiyinə görə Azərbaycanın lideri, hörmətli İlham Heydər oğlu Əliyevə minnətdarlığımı bildirmək istəyirəm.

Biz iqtisadiyyatlarımızın yeni artım nöqtələri ola biləcək mütərəqqi investisiya layihələrinin reallaşdırılması üzərində ayrıca dayandıq. Sənaye, toxuculuq, aqrosənaye və tikinti sahələrində iri müştərək müəssisələr açılması mümkündür. Biz iki ölkənin hökumətlərinə birgə həyata keçirilməsi üçün iri layihələrin müəyyən edilməsi barədə tapşırıq verdik. Kənd təsərrüfatı sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün çox böyük potensial var. Ötən ilin yekunlarına görə aqrar-sənaye kompleksi məhsullarının ikitərəfli ticarətinin həcmi üç dəfə artıb və 146 milyon dollara bərabər olub. Beləliklə, bu gün bizim ümumi əmtəə dövriyyəmizin üçdəbir hissəsindən çoxu kənd təsərrüfatının payına düşür. Biz kənd təsərrüfatı məhsullarının qarşılıqlı tədarükünü daha da artırmağın vacibliyini qeyd etdik.

İnformasiya texnologiyaları sahəsində kooperasiyanın gücləndirilməsi perspektivli sahə kimi müəyyən edildi. Hazırda Xəzərin dibi ilə optik-lifli rabitə xətti çəkilməsi üzrə fəal iş aparılır. Biz bu layihənin strateji əhəmiyyətini nəzərə alaraq onun vaxtında icrasını təmin etmək barədə tapşırıq verdik. Bununla yanaşı, azərbaycanlı tərəfdaşlarımız dövlət xidmətlərinin rəqəmsallaşdırılması sahəsində birgə layihələrin reallaşdırılmasına, habelə Qazaxıstandakı IT-startapların məkanlarından istifadə etməyə dəvət olunurlar.

Maliyyə sahəsində əməkdaşlıq üçün böyük təməl var. Bu gün Azərbaycan nümayəndə heyəti Astana Beynəlxalq Maliyyə Mərkəzini ziyarət edəcək. Bu mərkəz maliyyə və müasir texnologiyalar sahəsində qarşılıqlı fəaliyyət üçün yaxşı platforma ola bilər.

Hörmətli xanımlar və cənablar.

Çoxşaxəli əməkdaşlığı möhkəmlətmək üçün bizim əsas sərvətimizi – iki xalq arasında qardaşcasına münasibətləri qoruyub saxlamaq və möhkəmlətmək vacibdir. Buna görə biz mədəni-humanitar gündəliyimizin keyfiyyətcə zənginləşməsinə hər vasitə ilə şərait yaratmalıyıq. Azərbaycanda Qazaxıstan Mədəniyyəti Günlərinin keçirilməsi bu ilin əlamətdar hadisəsi olacaq. Ölkəmizdə Azərbaycan Mədəniyyəti Günlərinin təşkil olunması barədə razılıq əldə edilib. Ayrıca qeyd etmək istəyirəm ki, bu il Qazaxıstanda Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin 100 illiyinə həsr olunmuş bir sıra xatirə tədbirləri keçiriləcək. Rəmzi haldır ki, bu tədbirlərə start verəcək hadisə bizim bu gün Astananın mərkəzində Azərbaycan xalqının şanlı oğlunun adını daşıyan küçənin açılışında iştirak etməyimiz olacaq. "Qazaxıstan" telekanalı da Heydər Əliyev haqqında "Görkəmli həyat" adlı nadir sənədli film hazırlayıb. Film bu gün ölkəmizin milli televiziyasının efirində göstəriləcək. Bütün bu tədbirlər xalqlarımızın əbədi dostluğunun parlaq nümunəsi, Qazaxıstan-Azərbaycan münasibətlərinin inkişafına tarixi töhfə vermiş görkəmli dövlət xadiminə hörmət əlamətidir.

İki ölkənin gəncləri arasında təmaslar da bizim humanitar əlaqələrin möhkəmlənməsinə şərait yaradır. Biz gənclər siyasəti və təhsil sahəsində əməkdaşlığın inkişafı üçün tərəflərin atdığı addımları alqışladıq. Müvafiq nazirliklərə akademik mobilliyin təmin olunmasına, birgə təhsil və elmi layihələrin təşkilinə maksimum kömək etmələri barədə tapşırıq verilib.

Media sahəsində qarşılıqlı fəaliyyət, kontent mübadiləsi qardaş xalqların daha da yaxınlaşmasına sanballı töhfə verə bilər. Bu gün müvafiq sazişlər imzalandı. Ona görə də danışıqların gedişində Qazaxıstan telekanallarının Azərbaycan kabel operatorları şəbəkələrində yayımlanmasına, habelə animasiya filmlərinin distribusiyasına dair razılaşmaların reallaşdırılmasının vacibliyi qeyd edilib.

Bu gün beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi aparılıb. Qazaxıstan və Azərbaycan müxtəlif çoxtərəfli strukturlar çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət göstərir, bir sıra aktual beynəlxalq və regional məsələlərdə oxşar mövqelər tuturlar. Bu baxımdan qeyd etmək istəyirəm ki, Qazaxıstan ənənəvi olaraq Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı münasibətlərin diplomatik yollarla nizamlanmasının tərəfdarıdır, habelə tezliklər sülh müqaviləsi bağlanmasına dair səyləri alqışlayır. Bütövlükdə regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün qarşılıqlı dəstəyin davam etdirilməsinin və birgə tədbirlər görülməsinin zəruriliyi eyni qaydada anlaşılır.

Gördüyünüz kimi, müzakirə edilən məsələlərin dairəsi çox geniş olub. Azərbaycan Prezidentinin səfərinə görə ona bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər ölkələrimiz arasında qarşılıqlı münasibətlərin, əməkdaşlığın inkişaf etdirilməsinin uğurla davamı üçün, həqiqətən, çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan ilə əməkdaşlıq Qazaxıstan üçün prioritet məsələ olub və olacaq. Biz bu əməkdaşlığı konkret məzmunla, konkret razılaşmalarla zənginləşdirmək üçün nə mümkündürsə edəcəyik. Diqqətinizə görə sağ olun.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli Kasım-Jomart Kemeleviç.

Əziz dostlar.

Mən, ilk növbədə, qonaqpərvərliyə və dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim. Mən Qazaxıstanda özümü evdə olduğum kimi hiss edirəm, burada teztez oluram. İlk növbədə, Qazaxıstan Prezidentini həyatın bütün sahələrini əhatə edən islahatların uğurla reallaşdırılması münasibətilə təbrik etmək və qardaş ölkənin inkişafı işində yeni uğurlar arzulamaq istərdim.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə hörmətə görə öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Prezident Tokayevin qeyd etdiyi kimi, bu gün biz Astananın mərkəzində Heydər Əliyevin adını daşıyacaq küçənin birgə açılışını edəcəyik. Biz bunu həm bizim Ulu Öndərin xatirəsinə, həm də bütün Azərbaycan xalqına hörmətin, dostluğun, qardaşlığın əlaməti kimi qiymətləndiririk.

Mən, həmçinin Qazaxıstan Prezidentinin işğaldan azad edilmiş Füzuli şəhərində qazax xalqının böyük oğlu Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması təşəbbüsünə görə təşəkkürümü bildirmək istərdim. Mərkəzin tikintisi artıq başlanıb. Bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir, Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq. Xüsusən indi – biz 30 illik işğaldan sonra 10 min kvadratkilometrdən artıq ərazinin praktiki olaraq sıfırdan başlayaraq bərpa etməli olduğumuz vaxtda.

Kasım-Jomart Kemeleviçin dediyi kimi, biz bu gün münasibətlərimizin geniş gündəliyini ətraflı müzakirə etdik. Qazaxıstan Prezidenti bu gün müzakirələr çərçivəsində toxunulmuş mövzular üzərində ətraflı dayandı. Təkrarlamaq istəmirəm, bu barədə yalnız bir neçə məqamı şərh etmək istərdim. Biz, həqiqətən, ölkələrimiz arasında çoxşaxəli əməkdaşlığı dərinləşdirmək və genişləndirmək əzmindəyik.

Keçən ilin avqust ayında Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı Müttəfiqlik qarşılıqlı əlaqələrinin və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi haqqında Bəyannamə imzalandı. Bugünkü Bəyannamə də əlaqələrimizin və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə yönəlib. Bu bəyannamələrin adlarının özü bizim münasibətlərimizin xarakterinə dəlalət edir. Bu, müttəfiqlər arasında münasibətlərdir. Təbii ki, bunun əsasını ölkələrimizin qardaş xalqları arasında çoxəsrlik tarixə malik olan qarşılıqlı əlaqələr, dostluq və əməkdaşlıq təşkil edir. Bu, bugünkü qarşılıqlı əlaqələrimizin əsas bazasıdır. Qazaxıstan ilə qardaşlıq münasibətləri əcdadlarımızın göstərişi, eləcə də həyati zərurətdir. Çünki Xəzər regionunda, Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda baş verən proseslər bizə regional təhlükəsizliklə bağlı məsələlərdən başlamış nəqliyyat, logistika, energetika, humanitar əməkdaşlıq, ekologiya ilə bağlı məsələlərə qədər bütün istiqamətlər üzrə əməkdaşlığı möhkəmlətməyi diktə edir. Xüsusən ona görə ki, təəssüflər olsun, Xəzərin həm sizə, həm də bizə aid olan sahillərində dənizin sürətlə dayazlaşmasını müşahidə edirik.

Beləliklə, ölkələrimiz arasında müttəfiqlik münasibətləri bizim qarşılıqlı fəaliyyətimizin gələcək inkişafının möhkəm təməlidir. Bu gün biz bu təməli konkret məzmunla zənginləşdiririk və ötən ilin avqust ayında Bakıda qəbul edilmiş qərarlar bu gün artıq reallaşır. O cümlədən Prezident Tokayevin qeyd etdiyi kimi, Qazaxıstan neftinin Azərbaycandan keçməklə tranzitinin başlanması, Orta Dəhlizin imkanlarını tam həcmdə səfərbər etmək üçün ölkələrimizin nəqliyyat-logistika infrastrukturlarının birləşdirilməsi üzrə ciddi işin başlanması barədə qərarlar.

Bu gün biz Şərq-Qərb marşrutu üzrə yükdaşımaların artırılması ilə bağlı konkret rəqəmləri, konkret qrafiki müzakirə etdik və bütün bu məsələlərin ən yaxın vaxtda öyrənilməsi üçün müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verdik.

Biz həm də sənaye kooperasiyası, ixrac-idxal əməliyyatlarının nomenklaturunun genişləndirilməsi ilə bağlı məsələləri, o cümlədən gələcəkdə ixrac-idxal potensialının reallaşdırılması üçün sifarişlərin yerləşdirilməsi məsələlərini fəal müzakirə etdik. Təbii ki, biz bir-birimizin infrastrukturunu, bir-birimizin sənaye potensialını bir-birimizə tədarük edə biləcəyimiz mallar hesabına tamamlamalıyıq, beləliklə, əmtəə dövriyyəsini artırmalıyıq. Bu gün bizim ortamüddətli perspektivli əmtəə dövriyyəsini milyard dollara çatdırmaq barədə rəqəmlər səsləndi. Mən hesab edirəm ki, xüsusən bizim əldə etdiyimiz razılaşmalar çərçivəsində, bu, tamamilə realdır. Fikrimcə, biz bu həddə kifayət qədər qısa müddətdə çatacağıq. Əsas odur ki, əməkdaşlığı möhkəmlətmək üçün çox müsbət ortaq əhvali-ruhiyyə var.

Onu da qeyd etmək istərdim ki, biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, bütün məsələlərə dair bir-birimizi həmişə dəstəkləyirik və dəstəkləyəcəyik. Biz həm də, xüsusən ölkələrimizdən birinin üzv olduğu təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu, uzun illərboyu bizim münasibətlərin səmimi xarakterini nümayiş etdirir.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində Qazaxıstanın mövqeyinə görə Prezident Tokayevə təşəkkür edirəm. Mən normallaşmaya dair danışıqlar prosesinin indiki statusu barədə həmkarıma məlumat vermişəm. Biz normallaşma əzmindəyik və İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağı təklif etdi. Praktiki olaraq bu iş başlanıb, amma bizim istədiyimiz kimi rəvan getmir. Lakin bunun alternativi yoxdur. Hətta 30 illik işğala və Azərbaycan xalqının məruz qaldığı məhrumiyyətlərə, hazırda bərpa etməli olduğumuz dağıntılara baxmayaraq, qonşular arasında münasibətlər normal olmalıdır. Bununla belə, biz gələcəyə baxırıq və hesab edirik ki, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, BMT-nin Nizamnaməsi, beynəlxalq hüququn bütün əsas normaları və prinsipləri əsasında sülh müqaviləsinə nail olmaq mümkündür, bu müqavilə çoxillik düşmənçilik səhifəsini çevirəcək.

Əlbəttə, Qazaxıstanın məhz bizim regionda sülhün bərqərar olunmasına yönəlmiş prinsipial mövqeyi böyük hörmətə layiqdir. Qazaxıstanın beynəlxalq arenada nüfuzunu, ən mühüm qlobal məsələlərə dair ölçülüb-biçilmiş, prinsipial mövqeyini xüsusi qeyd etmək istərdim. Biz artıq beynəlxalq təhlükəsizliklə bağlı məsələlərə dair fikir mübadiləsi aparmışıq və bu gün hələ bu barədə diskussiyaları davam etdirəcəyik. Bu məsələlər daimi diqqət, prinsipial, dəqiq və ölçülüb-biçilmiş mövqe tələb edir. Bu halda qazaxıstanlı qardaşlarımızı təbrik etmək istərdim ki, ölkənin beynəlxalq arenada nüfuzu artır və Qazaxıstan haqlı olaraq dünya birliyinin böyük hörmətini qazanıb.

Öz tərəfimdən bir daha demək istərdim ki, Azərbaycanda sizin qardaşlarınız yaşayır, onlar sizə çox hörmət edir, sizi qiymətləndirirlər. Qazaxıstanın bizə münasibətdə əvvəllər də, bu gün də nümayiş etdirdiyi həmrəyliyə görə sizə çox təşəkkür edirik. Biz də öz tərəfimizdən qardaş Qazaxıstan xalqına həqiqi qardaşlıq hisslərini və münasibəti göstərmək üçün nə mümkündürsə edəcəyik.

Hörmətli Kasım-Jomart Kemeleviç, qonaqpərvərliyə, dəvətə görə bir daha təşəkkür edirəm və fürsətdən istifadə edib Sizi yenidən, Sizin üçün münasib vaxta Azərbaycana səfərə dəvət etmək istəyirəm.

**Prezident Kasım-Jomart Tokayev:** Təşəkkür edirəm. Xalqlarımız arasında qardaşcasına qarşılıqlı münasibətlərlə bağlı sözlərinizə görə Sizə xüsusi təşəkkür etmək istərdim. Qazax xalqı üçün də azərbaycanlılar qardaşdır. Bu barədə bu gün danışıqlar zamanı da demişəm, indi də deyirəm. Bu, sadəcə, bəlağətli sözlər deyil, hərçənd xüsusən belə tədbirlər zamanı hərdənbir bəlağətli sözlər də demək lazımdır. Bu sözlər, əslində, ölkələrimiz arasında əməkdaşlığın xarakterini əks etdirir. Ümidvaram ki, bütün bunlar daimi olacaq.

*Ardı 4-cü səhifədə*

Aprelin 10-da Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilib.

* * *

Aprelin 10-da Astanada Heydər Əliyev küçəsinin təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev açılış mərasimində iştirak ediblər.




**Mərasimin aparıcısı** dedi:

– Azərbaycan ilə Qazaxıstan arasında diplomatik, mədəni, sosial, siyasi və iqtisadi münasibətlər ilbəil möhkəmlənir. Qazaxıstan Respublikası Prezidentinin tapşırığına əsasən paytaxtın ən iri küçələrindən birinə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı verilib. Azərbaycanda tərəqqi və genişmiqyaslı quruculuq işləri bu böyük insanın rəhbərliyi ilə başlayıb. Yeni məkan və oradakı memarlıq elementləri qardaş dövlətlər arasında möhkəm və bir-birini qarşılıqlı zənginləşdirən əməkdaşlığın rəmzidir.

Heydər Əliyevin şərəfinə adlandırılmış küçə firavanlaşan Yesil rayonunda yerləşir. Dördzolaqlı küçə Ulu Dala prospekti ilə kəsişir. Küçənin uzunluğu 1400 metrdir. Heydər Əliyev küçəsində dərin mənalı bir monument ucaldılıb. Bu memarlıq nümunəsinə daxil olan elementlər türk köklərinin ortaqlığını, mədəni dəyərlərin yaxınlığını və Azərbaycan xalqına hörməti vurğulayır. Monumentin üzərindəki QR-kodu skanlamaqla Heydər Əliyevin həyatı haqqında daha çox məlumat əldə etmək olar.

Hörmətli xanımlar və cənablar, gəlin bir-birimizi bu əlamətdar bayram, Qazaxıstanın və Azərbaycanın həyatında mühüm hadisə münasibətilə təbrik edək.

***

Dövlət başçıları “Heydər Əliyev küçəsi” sözləri yazılan lövhənin üzərindən ağ örtüyü götürdülər.

***

Sonra mərasimdə çıxış edən Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** dedi:

– Bu hadisənin xüsusi rəmzi mənası var. Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək və qorumaq bizim borcumuzdur. Astanada onun adını daşıyan yeni küçəni açmaqla biz bu nəcib işə mühüm töhfə veririk. Bu, Azərbaycan xalqının böyük oğluna bizim səmimi münasibətimizin və ehtiramımızın əlamətidir.

Bu küçə Astana gənclərini və qonaqlarını cəlb edən yerdir. Küçə boyunca dünyada ən böyük sferik bina olan “Nur Aləm”, Astana Balet Teatrı, Mərkəzi Botanika bağı, habelə şəhərin ən iri ticarət-əyləncə mərkəzi kimi mühüm obyektlər yerləşir.

Qeyd etmək istəyirəm ki, bu küçənin açılışı Qazaxıstanda Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş bir sıra mühüm tədbirlərə start verəcək. O cümlədən bu gün “Qazaxıstan” telekanalında Heydər Əliyevin zəngin həyat yolu haqqında “Görkəmli həyat” adlı sənədli filmin premyerası olacaq. Rəmzi haldır ki, Heydər adının tərcüməsi “irəlidə gedən” deməkdir. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, Heydər Əliyev dinamik inkişaf edən müasir Azərbaycanın memarıdır. Son dərəcə mürəkkəb dövrdə ölkəyə rəhbərlik edən Heydər Əliyev çoxəsrlik Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində müstəsna rol oynayıb. Onun müdrik rəhbərliyi ilə Azərbaycanda dərin siyasi və sosial-iqtisadi islahatlar həyata keçirilib. Bu mürəkkəb, enişli-yoxuşlu yolu qət edən ölkə irəliyə doğru böyük sıçrayış edib, dünya birliyinin nüfuzlu üzvünə çevrilib. Əslində, Heydər Əliyevin adı Azərbaycanın əsl rəmzi olub. Heydər Əliyevin həyat yolu millətə fədakarcasına xidmətin parlaq nümunəsidir. Müasirləri Heydər Əliyevi yüksək insani keyfiyyətlərinə, prinsipiallığına, dürüstlüyünə, ədalətliliyinə görə qiymətləndirirdilər.

Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin təşəkkülünə və möhkəmlənməsinə Heydər Əliyev çox qiymətli töhfələr verib. Biz yaxşı xatırlayırıq, o, qazaxlar haqqında həmişə səmimi sözlər deyir, bizim soykökümüzün və irsimizin ortaq olmasını vurğulayırdı. Heydər Əliyev deyirdi ki, xalqlarımızın dərin tarixə gedib çıxan kökləri qazax və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərin əsasıdır. Həm qazaxlar, həm də azərbaycanlılar üçün tarix mürəkkəb olub. Lakin bütün çətinliklərə baxmayaraq, xalqlarımız həmişə bir-birini dəstəkləyib, həmişə hiss edib və başa düşüblər ki, onlar eyni köklərə mənsubdurlar. Bu sözlər 1997-ci il iyunun 10-da deyilib. Ölkələrimiz arasında müasir, möhkəm və ahəngdar qarşılıqlı münasibətlər bu sözləri təsdiq edir. Bu münasibətlər strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edir.

Hörmətli İlham Heydər oğlu, Siz öz dahi atanızın quruculuq işini layiqətlə davam etdirirsiniz. Sizin nüfuzlu, güclü liderliyinizlə Azərbaycan tərəqqi və inkişaf yolunda inamla irəliləyir. Dövlətlərimiz arasında hərtərəfli əməkdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk. Fürsətdən istifadə edib əməkdaşlığımızın inkişafında mühüm mərhələ olan bu səfərinizə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim.

Bu gün bizim çoxşaxəli əməkdaşlığımızın bundan sonrakı inkişafına təkan verən çox mühüm sənədlər imzalanıb. Qazaxıstan ilə Azərbaycan arasında müttəfiqlik, tərəfdaşlıq münasibətlərinin parlaq və ümidverici gələcəyi var. Buna görə də əsla şübhə yoxdur ki, bundan sonra da dövlətlərimizin xalqlarına xidmət məsələsində vahid mövqelərdən çıxış edəcəyik. Diqqətinizə görə sağ olun.

***

Azərbaycan Prezidenti **İlham Əliyev** çıxış edərək dedi:

– Hörmətli Kasım-Jomart Kemeleviç, əziz dostlar.

Mənim Qazaxıstana səfərim sona yaxınlaşır. Qonaqpərvərliyə, səmimi qəbula, mənə və bizim nümayəndə heyətinin üzvlərinə xoş münasibətə və bu gün səfər çərçivəsində bu gözəl, mən deyərdim, tarixi mərasimdə iştirak etməyimizə görə Prezident Tokayevə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Hər bir azərbaycanlı kimi məndən ötrü də Heydər Əliyevin adı çox əzizdir. Təkcə, ona görə yox ki, o mənim atamdır, həm də ona görə ki, bu insan müasir müstəqil Azərbaycanın ən çətin dövründə xalq tərəfindən dəvət edildi və ən ağır dövrdə ölkəyə rəhbərlik etdi. Heydər Əliyev haqqında danışarkən onun Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrü də xatırlamamaq olmaz, bu dövr də quruculuq, inkişaf dövrü idi. O vaxt – ötən əsrin 60-cı illərinin sonundan 80-ci illərinin əvvəlinə qədər Azərbaycan onun rəhbərliyi ilə sosial-iqtisadi inkişafa görə SSRİ miqyasında qabaqcıl mövqelərə çıxmışdır. Sonra Moskvada Sov.İKP MK-nın Siyasi Bürosunun – sovet dövlətinin ali məşvərət orqanının üzvü qismində və hökumətin sədrinin birinci müavini vəzifəsində işlədiyi dövr olub. O vaxt Heydər Əliyev, əslində, keçmiş SSRİ-nin xalq təsərrüfatının bir sıra ən mühüm sahələrinə rəhbərlik edirdi.

Həyatının müəyyən dövründə o, haqsızlığa, təzyiqlərə məruz qalırdı. Ona qara yaxılır, böhtan atılırdı. Lakin Azərbaycan xalqı ona həmişə inanırdı və ən çətin dövrdə – Azərbaycan xalqının gələcəyi məhz onun kimi insanlardan asılı olanda o, ölkəyə rəhbərlik etdi və Azərbaycanı faktiki olaraq dünyanın siyasi xəritəsindən silinməkdən xilas etdi. Təəssüf ki, o vaxt məhz bu barədə söhbət gedirdi, çünki daxili ziddiyyətlər ölkəni didib-parçalayırdı, vətəndaş müharibəsi tam sürətlə gedirdi, eyni zamanda Azərbaycan torpaqları əlaltından işğal edilirdi. Bu ən mürəkkəb dövrdə Heydər Əliyev Azərbaycana rəhbərlik etdi və mahiyyət etibarilə xalqımızın sonrakı bəlalarının və faciələrinin qarşısını aldı. Onun Prezident vəzifəsində olduğu 10 il – 1993-2003-cü illər sabitlik, inkişaf və Azərbaycanın gələcək sıçrayışı üçün təməl qoyulması dövrü oldu.

Heydər Əliyev bizə onun işlərini davam etdirməyimizi vəsiyyət edib. Onun əsas vəsiyyəti ondan ibarət idi ki, biz torpaqlarımızı işğaldan azad etməli, ərazilərimizi özümüzə qaytarmalı, Azərbaycan xalqının ləyaqətini bərpa etməliyik. Biz onun xatirəsinə, vəsiyyətlərinə sadiqik, onun bütün tapşırıqlarını şərəflə yerinə yetirmişik. Bu gün, Ulu Öndərin 100 illik yubileyi ərəfəsində inamla deyə bilərik ki, onun düşündüklərinin hamısı reallaşıb.

Kasım-Jomart Kemeleviç dedi ki, Heydər Əliyev qardaş qazax xalqına xüsusi münasibət və sevgi bəsləyirdi. Bu, həqiqətən, belədir, mən bunun şahidiyəm. O, qazaxların ənənələrini, adətlərini yaxşı bilir, qazax xalqının mədəniyyətinə, onun çoxəsrlik tarixinə hörmət bəsləyir, qazaxlarla azərbaycanlıların qardaşlığını çox yüksək qiymətləndirirdi. O, Türk dünyasını daha sıx birləşdirmək üçün əlindən gələni edirdi. Bu gün biz onun işinin, fəaliyyətinin nəticələrini, o cümlədən bunda görürük ki, Türk dünyası birləşir. Biz bu gün beynəlxalq arenada böyük nüfuz sahibi olan güclü təşkilat yaratmışıq.

Bu gün səfərimi başa çatdıraraq Qazaxıstan Prezidentinə və xalqına bir daha təşəkkürümü bildirmək, Qazaxıstan xalqını və Prezident Kasım-Jomart Kemeleviçi sosial-iqtisadi inkişaf, Qazaxıstanın beynəlxalq nüfuzunun möhkəmlənməsi yolunda qazanılmış böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Bu gün Qazaxıstan, – bu barədə bu gün mətbuat konfransında danışmışam, – dünya birliyinin nəzərində böyük nüfuza malikdir, beynəlxalq məsələlərdə mühüm rol oynayır. Qazaxıstanın irəli sürdüyü və reallaşdırdığı təşəbbüslər sözün geniş mənasında Avrasiya məkanında etimad tədbirlərinin, sülhün möhkəmlənməsinə yönəlib. Biz də dostlar, qardaşlar kimi sizin uğurlarınıza ürəkdən sevinirik.

Bu gün biz müttəfiqlik səviyyəsinə çatmış əməkdaşlığımızın möhkəmləndirilməsinə dair sonrakı addımları müəyyənləşdirdik. Biz müttəfiqlərik, biz qardaşlarıq, biz dostlarıq. Bugünkü mərasim bizim münasibətlərimizin sarsılmazlığına, qardaşlığımıza və qarşılıqlı hörmətimizə daha bir sübutdur. Heydər Əliyevin xatirəsinə bu cür münasibətə, dostluğa, qardaşlığa görə Prezidentə və bütün qazaxıstanlı qardaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Heydər Əliyev küçəsində yerləşən Botanika bağında ağac əkdilər.

Daha sonra dövlət başçıları şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etdilər.

* * *



Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Astana Beynəlxalq Maliyyə Mərkəzində olublar.

Mərkəzin rəhbəri Renat Bekturov investisiyaların cəlb edilməsi və regional təşəbbüslərin dəstəklənməsi üçün Maliyyə Mərkəzinin potensialı, o cümlədən burada Azərbaycan layihələrinə beynəlxalq investorlarda maraq yaratmaq və sərmayələrin strukturlaşdırılması imkanları barədə dövlət başçılarına məlumat verdi.

Diqqətə çatdırıldı ki, Astana Beynəlxalq Maliyyə Mərkəzi 2018-ci ildə fəaliyyətə başlayıb. Onun əsas funksiyaları Qazaxıstan iqtisadiyyatına investisiyaların cəlb olunmasına kömək göstərilməsi, ölkənin maliyyə sahəsinin, o cümlədən fond bazarının inkişaf etdirilməsi və beynəlxalq kapital bazarlarına inteqrasiya olunmasıdır.

2023-cü il martın sonunda Mərkəz vasitəsilə cəlb olunan investisiyaların həcmi 8,1 milyard ABŞ dolları təşkil edib. Onun yurisdiksiyasında 73 ölkədən 1800-dən çox şirkət qeydə alınıb. Maliyyə Mərkəzinin vergi rejiminin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının vergi şəffaflığı qlobal standartlarına uyğun olduğu təsdiq edilib.

Mərkəzin nəzdində fəaliyyət göstərən “Astana International Exchange” (AIX) birjası portfel investisiyalarının cəlb olunması üzrə səmərəli platformaya çevrilib, Qazaxıstanda yaşıl və dayanıqlı maliyyələşdirmə sahəsində regional liderlik strategiyasının həyata keçirilməsi üzrə fəal iş aparan “Yaşıl” maliyyə mərkəzi, startap ekosistemi, təşəbbüs bazarı, elektron ticarət, korporativ innovasiyalar və yeni texnoloji istiqamətlərin inkişafına yardım etməyə cavabdeh olan “Tex Hub”a malikdir.

Hazırda Maliyyə Mərkəzinin yurisdiksiyasında dünyanın 300 texnoloji, İKT və fintek şirkətləri, o cümlədən “Amazon Data Services Kazakhstan”, “Minebest”, “Bitfury”, “One-Web”, “Binance” və digər qlobal şirkətlər qeydiyyata alınıb.

Prezident İlham Əliyev sərmayədarların sərbəst fəaliyyəti üçün etibarlı və münbit investisiya mühitinin əhəmiyyətini xüsusi vurğuladı. Orta Dəhlizlə bağlı müzakirələrin aparıldığını qeyd edən dövlətimizin başçısı bildirdi ki, bu dəhliz təkcə tranzit imkanlarının genişləndirilməsi baxımından deyil, müxtəlif sahələrdə biznesin inkişafı üçün də mühüm əhəmiyyət daşıyır. Azərbaycan Prezidenti Qazaxıstan ilə birgə istehsalatların yaradılması və investisiya layihələrinin reallaşdırılması üçün nümayəndə heyətlərinin səfərlərinin önəmini qeyd etdi. “Biz bir çox hallarda paralel kursla hərəkət edirik və Orta Dəhliz vasitəsilə artıq bütün infrastrukturları tam birləşdiririk”, – deyən Prezident İlham Əliyev Qazaxıstanın işgüzar dairələrinin nümayəndələrini ölkəmizə səfərə dəvət etdi.

Sonda Prezident İlham Əliyev Mərkəzin xatirə kitabına ürək sözlərini yazdı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri aprelin 10-da başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

## S.N.Gəncəyevanın Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samrat Nurəddin qızı Gəncəyeva Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 10 aprel 2023-cü il*

## Z.N.Mənsumovanın Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zeynəb Natiq qızı Mənsumova Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 10 aprel 2023-cü il*

## *"Heydər Əliyev dühası əbədiyaşardır"* adlı sərginin açılışı olub



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Heydər Əliyev dühası əbədiyaşardır" adlı sərginin açılışı olub. Əvvəlcə Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Tədbiri giriş sözü ilə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, millət vəkili Ülviyyə Həmzəyeva açıb. Qeyd olunub ki, ölkəmizdə mədəniyyət, incəsənət, o cümlədən təsviri sənət böyük inkişaf yolu keçib. Bu inkişaf milli mədəniyyətimizin böyük hamisi, dahi dövlət xadimi Heydər Əliyevin yaradıcı insanları hərtərəfli qayğı ilə əhatə etməsi sayəsində baş verib. Ümummilli Liderimizin Azərbaycana rəhbərliyi dövründə milli mədəniyyətin və təsviri sənətin inkişafında yeni mərhələ başlanmış, bu sahəyə xüsusi dövlət qayğısı göstərilmiş, yaradıcılıq prosesi geniş vüsət almışdır.

Diqqətə çatdırılıb ki, bu gün görkəmli dövlət xadiminin ideyalarına əsaslanaraq Azərbaycanımızı iri addımlarla irəliyə aparan Prezident cənab İlham Əliyev hər zaman yaradıcı insanlara, mədəniyyətə, sənətə və sənətkara qayğı göstərir, bu sahənin inkişaf etməsi üçün diqqətini əsirgəmir.

Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər nəticəsində mədəniyyət paytaxtımız olan Şuşa və işğal altındakı digər torpaqlarımız qaytarıldı. Gözəl Şuşamız bu gün festivallara, mədəni tədbirlərə ev sahibliyi edir. Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan və burada fəaliyyət göstərən rəssamlar Prezident cənab İlham Əliyevin siyasətini hər zaman dəstəkləyirlər. Bu, bugünkü sərgidə də aydın hiss olunur. Bütün sənət adamlarının arzusu bərpa olunmuş Zəngəzur dəhlizi ilə əsas torpaqlarımıza, köhnə ənənələri bərpa edərək plenerlərlə getməkdir.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı sədrinin müavini-aparatın rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxışında diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycana hər iki tarixi formasiyada rəhbərlik etmiş, Azərbaycanın siyasi tarixində, mədəniyyətində, incəsənətində dəyərli izlərini qoymuş fenomenal şəxsiyyətdir. Ümummilli Liderin zəngin siyasi irsinə nəzər salsaq, incəsənət, mədəniyyət və başqa sahələrdə Azərbaycan ziyalılarının hazırlanmasında böyük rolu olduğunu aydın görərik. Məhz buna görədir ki, Ümummilli Liderin irsi əbədi yaşayır. Dahi rəhbəri görmək səadəti nəsib olmayan yeni nəsil gənclər belə bir irsə ideal örnək kimi yeni bir baxış bucağından baxa bilirlər. Bu sərgidə bunun bir daha şahidi olduq.



Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova bildirib ki, Ulu Öndər dövlətçilik sahəsində əvəzedilməz bir irs qoyub. Görkəmli dövlət xadimi həm də Azərbaycan mədəniyyətinin dünya arenasına çatdırılacaq səviyyəyə yüksəlməsində mühüm rol oynayıb. Dahi şəxsiyyətin mədəniyyət sahəsinə açdığı yol Azərbaycan mədəniyyətinin bugünkü yüksək inkişafına töhfədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin fəaliyyətinin parlaq davamçısıdır. Onun mədəniyyətimizə göstərdiyi qayğı, diqqət məhz Heydər Əliyev siyasətinə sədaqət nümunəsidir.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya vurğulayıb ki, bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz görkəmli siyasi xadim Heydər Əliyev Türk dünyasının yetişdirdiyi ən önəmli liderlərdən biridir. Böyük liderlərin xüsusiyyətlərindən biri millətləri çətinə düşdükdə xalqını öz ətrafında birləşdirərək gələcəyə doğru qələbələr qazanmaqdır. Bu böyük şəxsiyyəti türk xalqına sevdirən ən önəmli xüsusiyyətlərindən biri də Türkiyə sevgisi, Türkiyə xalqına bəslədiyi dərin məhəbbətdir. Bu gün həm Ulu Öndər Heydər Əliyevin, həm də böyük lider Mustafa Kamal Atatürkün ortaya qoyduğu dəyərlər çərçivəsində Türkiyə və Azərbaycan qardaşlığı, dostluğu hər keçən gün daha da artmaqdadır, daha da güclənməkdədir. Bunun bariz nümunəsi 44 günlük Vətən müharibəsində və Türkiyədə baş verən dəhşətli təbii fəlakət zamanı gördük. Türkiyə ilə Azərbaycan bir-birinin yanında oldu, hər zaman birlikdə olacaq.

Tədbirdə Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev, "Naxçıvan" Universitetinin rektoru Anar Kazımov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, millət vəkili Cəbi Quliyev çıxış ediblər. Çıxışlarda bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyinin qarşısında xidmətləri əvəzsizdir. Ulu Öndərin 40-cı illərdə memar olmaq arzusu reallığa çevrilməsə də, o, müstəqil Azərbaycan dövlətinin memarı olub. Bu gün dahi şəxsiyyətin 100 illiyi şərəfinə təşkil olunmuş bu sərgidə Ulu Öndərin arzuları, onun Azərbaycan haqqında düşüncələri yaşayır.

*Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev dühası əbədiyaşardır" adlı rəsm sərgisində 20 rəssamın 60 əsəri nümayiş olunub. Əsərlər portret, heykəltəraşlıq, rəngkarlıq, qrafika janrlarında hazırlanıb.Sərgi bir həftə davam edəcək.*

**✍ Gülcamal TAHİROVA**

## Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazası gücləndirilir



Son illər ölkəmizdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət hüquq-mühafizə orqanlarının fəaliyyətlərinin, onların maddi-texniki təchizatlarının yüksəldilməsinə dövlət qayğısı daha da artırılıb. Bu isə, öz növbəsində, Daxili İşlər Nazirliyi sisteminin də keyfiyyətcə yeni mərhələyə yüksəldilməsində, polis orqanlarının fəaliyyətinin təmin edilməsində öz bariz ifadəsini tapır.

Bu tədbirlərin davamı olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə 10 yeni xidməti avtomobil təqdim olunub. "Fiat Doblo" markalı avtomobillər post-patrul xidməti üçün nəzərdə tutulub.

Qeyd edək ki, post-patrul, növbətçi hissə və çevik polis alayı üçün yeni alınan "Fiat Doblo" markalı avtomobillər xidmətin operativliyini təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir. Müasir interyerə malik avtomobillərin hər biri tetra rəqəmsal radio-rabitə, səsgücləndirici və sayrışan işıq sisteminə malikdir.

Yeni xidməti avtomobillər təyinatı üzrə bölmələrə təhvil verilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə 5 yeni müasir yanğınsöndürən avtomobil verilib



Azərbaycan Fövqəladə Hallar Nazirliyi Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yaşayış sahələrində, sənaye, dağlıq-meşə zonalarında baş verən yanğınların söndürülməsi üçün 5 yeni müasir yanğınsöndürən avtomobil verib.

Yeni avtomobillərə Rusiya istehsalı olan 3 "KamAZ" və 1 "Ural" markalı yanğınsöndürən, Almaniya istehsalı olan 1 "İveco magirus" markalı 42 metr hündürlüyə uzanan avtonərdivan daxildir. Avtomobillər çoxprofillidir, yanğın yerinə şəxsi heyətin, yanğın texniki və xilasedici avadanlıqların, suyun və köpükəmələgətirən maddələrin daşınması, çoxmərtəbəli binalardan insanların təxliyəsi və əşyaların çıxarılması, xilasedici və yanğınsöndürənlərin yuxarı mərtəbələrə qaldırılması, yanğın yerinin işıqlandırılması, eyni zamanda digər köməkçi işlərin görülməsi üçün istifadə olunacaq.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada birinci rübdə 1646 abonent genişzolaqlı internetlə təmin edilib



Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində olduğu kimi, rabitə və yeni texnologiyaların inkişafı istiqamətində də nailiyyətlər əldə olunub. İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı üçün kifayət qədər imkanlar və şərait yaradılıb. Görülən işlərin nəticəsidir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində sakinlər müasir rabitə xidmətləri ilə təmin olunurlar. Həmçinin yeni inşa olunan kənd mərkəzlərində rabitə evləri istifadəyə verilir, yeni avtomat telefon stansiyaları quraşdırılır.

Muxtar respublikada əhaliyə nümunəvi rabitə və internet xidmətlərinin göstərilməsi 2023-cü ilin ilk rübündə də uğurla davam etdirilib. Belə ki, birinci rüb ərzində əhalinin internet xidmətlərinə olan tələbatının təmin edilməsi məqsədilə Naxçıvan şəhərində, Culfa və Kəngərli rayonlarında mövcud avtomat telefon stansiyalarının internet tutumu artırılıb ki, nəticə etibarilə, ümumilikdə, 550-dən artıq istifadəçinin internetə olan tələbatının ödənilməsinə şərait yaranıb. İlk rüb ərzində 487 abonent yeni stasionar telefon xətti ilə, 1646 abonent isə genişzolaqlı internetlə təmin olunub. GPON (Giqabyte Passive Optical Network–Qiqabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyası əsasında həyata keçirilən "Evədək optika" layihəsi çərçivəsində isə 38 fərdi mənzilə fiber-optik xətlər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb.

Qeyd olunanlarla yanaşı, nazirliyin aid mütəxəssislərinin iştirakı ilə muxtar respublikanın şəhər, rayon və kəndlərində monitorinqlər aparılıb, rabitə xətlərində yaranmış nasazlıqlarla bağlı olaraq yenilənmə işləri görülüb, yeni fiber-optik xətlər çəkilib, yeni paylayıcı şkaflar quraşdırılıb, istismara yararsız rabitə xətləri yeni xətlərlə əvəz edilib, yeni abonent qutuları əlavə edilməklə rabitə xətt təsərrüfatında olan digər nasazlıqlar aradan qaldırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Son tamamlama işləri görülür

Ölkəmizdə, eləcə də muxtar respublikamızda diqqətdə saxlanılan prioritet mövzu sosialyönümlü layihələrin icrasıdır. Bu istiqamətdə mühüm tədbirlərin görülməsi, xidmət yerlərinin açılması, bir sözlə, insanların rahatlığı üçün uğurlu planların icrası artıq günümüzün reallığına çevrilib.



Belə uğurlu layihələrdən biri də Naxçıvan şəhərində inşası yekunlaşmaq üzrə olan "DOST" Mərkəzidir.

Dörd mərtəbədən ibarət olan binada artıq işlərin böyük bir hissəsi yekunlaşıb, demək olar ki, son tamamlama işləri görülür. Özünəməxsus memarlıq üslubu və arxitekturası ilə diqqəti çəkən binanın böyük bir hissəsi, ən əsası isə xarici ekovit silikon fasadla işlənib. Qeyd edək ki, mərkəz fəaliyyətə başlayacağı gündən etibarən muxtar respublika əhalisinə dövlət tərəfindən təklif edilən əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə vahid mərkəzdən müasir, dəqiq, operativ və elektron xidmətlərin tətbiqi ilə daha yaxın və əlverişli çıxış təmin olunacaq. Həmçinin mərkəzdə təqaüdçülər və sosial qayğıya ehtiyacı olanlar üçün çağırış bölməsi, inzibati dəstək şöbəsi, həkim otağı, notariat xidməti, sağlamlıq imkanları məhdud insanların əl işlərindən ibarət sərgi satış zalı və digər xidməti otaqlar yerləşir. Mərkəzdə gedən son tamamlama işləri yaxın günlərdə yekunlaşacaq.

**✍ Məcid RƏŞADƏTOĞLU**

*Tarixi Azərbaycan torpaqları*

## Qərbi Azərbaycana Qayıdış: tarixi həqiqət prizmasında

*Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və dəhşətlərə düçar olmuşdur. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar min illərboyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir. Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar, tədricən, doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb.*

Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasəti tarixi əsrləri əhatə edir və hadisələri ardıcıllıqla izləsək, görərik ki, hadisələr eyni ssenari əsasında baş verib. Hələ XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Ötən əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Azərbaycanın bir sıra torpaqlarını sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Ölkə Prezidenti cənab İlham Əliyev bunu xalqımıza qarşı növbəti cinayət kimi qiymətləndirərək deyib: ***“Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi”.***

1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olublar.

Ermənilərin İrandan Cənubi Qafqaza, indiki Ermənistan ərazisinə köçürülməsinin bilavasitə rəhbəri olmuş A.S.Qriboyedov yazır: “Ermənilər gətirilib müsəlman mülkədarların torpaqlarında yerləşdirilmişlər... müsəlmanları sıxışdırırlar, onlar da hey əsaslı olaraq narazılıq edib şikayətlənirlər. Biz müsəlmanları indiki sıxışdırmalara qatlaşmaq, bu sıxışdırmaların uzun sürməyəcəyinə inandırmaq, onların torpaqlarına ilk dəfə buraxılan ermənilərin bu torpaqlara həmişəlik yiyələnəcəkləri barədə nigarançılığı müsəlmanların beynindən çıxarmaq üçün onlara edilməli olan təlqinlər barədə çox düşündük… Ermənilər indiki Ermənistan ərazisində məskunlaşdırıldıqdan dərhal sonra öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından çıxarmağa, qırmağa, milli soyqırımına başladılar”.

S. P. Zelinski isə yazır: “Zəngəzur qəzasında Axlatian, Prnakot və Şinətaq adlı cəmi üç erməni kəndi yerlidir, qalan erməni kəndləri 1826–1828-ci illərdən sonra təşkil olmuşdur”.

N.Şavrov belə etiraf edir: “XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min nəfər ermənininin 1 milyonundan çoxu ərazinin yerli sakinləri olmayıb, bizim tərəfimizdən məskunlaşdırılmışdır”.

Bəli, bütün bu faktlar onu deməyə əsas verir ki, Qərbi Azərbaycan tarixi türk torpaqları, köklü sakinləri



Azərbaycan türkləri olmuş, ermənilər isə xaricdən bu ərazilərə köçürülmüşlər. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazinin toponimlərinin 90 faizdən çoxunu türk mənşəli toponimlər təşkil edirdi. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək erməniləşdirilmiş və ya ruslaşdırılmışdır. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Burada yaşayan azərbaycanlılar isə zaman-zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır. 27 may 1997-ci ildə Müstəqillik Günü münasibətilə təntənəli yığıncaqda nitq söyləyən Ümummilli Lider Heydər Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya olunmalarından danışarkən demişdir: ***“O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistan çox gözəl iqlimə, yəni bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub. Malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir. Beləliklə, o vaxt Ermənistandan azərbaycanlıların çıxarılması, etnik təmizləmə baş veribdir. Onları öz yerlərindən, yurdlarından, doğma torpaqlarından o vaxt didərgin salıblar. Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq açıq təcavüz edibdir. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar. Ermənistan deyəndə, o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onları öz dədə-baba yurdlarından, tədricən, çıxardıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır”.***

Qərbi Azərbaycan ərazisindəki türk mənşəli adların dəyişdirilməsi siyasəti 1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsindən sonra XIX əsrin 30-cu illərindən sistemli formada və məqsədli şəkildə həyata keçirilmiş və adların dəyişdirilməsi siyasəti inqilabdan sonra yeni vüsət almış, minlərlə kənd adı məhv edilmiş, rəsmi qərarlarla adların bir qismi ruslaşdırılmış, bir




qismi isə qondarma erməni adları ilə əvəz edilmişdir. Bu gün Qərbi Azərbaycan ərazisindəki etnotoponimlərin öyrənilməsi xüsusi əhəmiyyət daşıyan məsələdir. Qərbi Azərbaycan ərazisində azərbaycanlıların etnogenezində müxtəlif qədim türk tayfaları iştirak etmişlər. Həmin tayfalar, təbii ki, Şimali və Cənubi Azərbaycan ərazilərindəki toponimlərdə də iz qoymuşlar. Tarixi faktlar hələ eramızdan əvvəl VIII əsrdə türk etnoslarının Qərbi Azərbaycan ərazisində yaşamasını təsdiq edir. Qərbi Azərbaycan ərazisindəki toponimlər arasında etnotoponimlərin sayı az deyildir. Onların hər biri müxtəlif türk etnoslarının, xüsusilə oğuzların bu ərazilərin aborigen sakinləri olduğunu sübuta yetirir.

Sevindirici haldır ki, bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilib, azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin davamçısı Prezident cənab İlham Əliyev dövlətimizin milli maraqlarına və Azərbaycançılıq ruhuna sadiq qalaraq Azərbaycan torpaqlarının tarixinə və mədəniyyətinə sahib çıxılmasının önəmini hər zaman vurğulayıb, Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu bütün beynəlxalq kürsülərdən bəyan edib.

2020-ci ildə Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. 44 günlük Vətən müharibəsində Azərbaycan qazandığı Zəfər tariximizə yeni bir salnaməni həkk etdi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi birdəfəlik həll edildi. Hazırda Azərbaycanın yeganə problemi öz əzəli və əbədi torpaqları olan Qərbi Azərbaycan torpaqlarının həqiqi sahiblərinə geri qaytarılması, vaxtilə bu torpaqlarda yaşamış Azərbaycan əhalisinin hüquqlarının bərpa olunmasıdır. İllərlə həsrətlə gözlədiyimiz böyük qayıdış tarixi hadisəsi reallığa çevrildi. Ölkə rəhbərinin də qeyd etdiyi kimi: ***“Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir”.***

Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qarşıda soydaşlarımızı Qərbi Azərbaycana böyük qayıdış gözləyir. Bu hədəfi Prezident cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində bəyan etdi. ***“Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”***, – deyə dövlətimizin başçısı vurğulayıb. Prezident cənab İlham Əliyev soydaşlarımızın Qərbi Azərbaycana qayıdacaqları ilə bağlı hədəfi bəyan edərkən azərbaycanlıların xarakterində olan çox mühüm bir amilə – xalqımızın tarixi yaddaşına istinad edib. Müqayisə aparan dövlətimizin başçısı bildirib: ***“Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar”.*** Görüşdə Möhtərəm Prezident tarixi faktlara nəzər salaraq Qərbi Azərbaycanın əzəli və əbədi tarixi torpaqlarımız olduğunu dünya ictimaiyyətinə bir daha bəyan etdi: ***“Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq, əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır”.***

Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə Qərbi azərbaycanlıların qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qaldığını bildirən cənab Prezident müasir dövrümüzdə onların hüquqlarının bərpa edilməli və əzəli torpaqlarına qayıtmalı olduqlarını bildirdi: ***“Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır”.***

Qeyd edək ki, Prezident Qərbi azərbaycanlı ziyalılarla görüşdə Qərbi Azərbaycana qayıdış Konsepsiyasının hazırlanması vəzifəsini də qarşıya qoydu. Bir ay müddətində Konsepsiya hazırlandı. Sənəddə son 200 ildə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtması prosesində İcmanın fəaliyyətinin ümumi prinsipləri öz əksini tapdı. Konsepsiya bu il yanvar ayının 25-də Müşahidə Şurasında təsdiq edildi.

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi deməkdir olacaq. Hər kəsin öz əzəli Vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün artıq qeyd edilən istiqamətdə hərtərəfli işlərə başlanılıb. Bu istiqamətdə BMT-yə müraciət ünvanlanıb.

Müraciət BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, Çin, ərəb və ispan) olmaqla adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur. Məsələnin BMT-nin ən mötəbər orqanlarının gündəliyinin qeyd edilən bəndləri ilə əlaqələndirilməsi azərbaycanlıların öz evlərinə qayıtmasının təməl insan hüquqlarının qorunması, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar edilməsi üçün zəruri olmasının beynəlxalq müstəvidə təsdiqidir. Beynəlxalq platformada bu məsələnin gündəmdə saxlanılması vacib əhəmiyyət daşıyır. BMT-də yayılan sənəd göstərir ki, artıq beynəlxalq müstəvidə də işlərə başlanılıb. Çünki qeyd etdiyimiz kimi, Azərbaycan dinc şəkildə, sülhlə soydaşlarımızın qayıdış məsələsini gündəmə gətirib.

*Bu gün, heç şübhəsiz ki, xalqımız Müzəffər Ali Baş Komandanın güdrəti və apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əminidir və öz liderinin ətrafında sıx birləşərək yeni qələbələrə zəmin yaradır.*

**Arzu ABDULLAYEV**
*Naxçıvan Dövlət Universitetinin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru*

*Dünya bazarında ipək məhsullarına günü-gündən artan tələbat ipəkçiliyi inkişaf etdirmək istəyən ölkələrin sayını artırır və bu mənada, barama istehsalına dəstək iqtisadi siyasətin əsas prioritetlərindən biri hesab olunur. Bu gün ipəkçilik dünyanın 30-dan çox ölkəsində geniş yayılıb. Hazırda ən böyük ipək istehsalçısı olan ölkələr Çin, Hindistan, Özbəkistan və Braziliyadır. Ölkəmizin də əlverişli iqlim və təbii-coğrafi şəraiti burada ta qədim zamanlardan baramaçılığın və ipəkçiliyin inkişafına şərait yaradıb və Azərbaycanı dünyanın ipəkçilik mərkəzlərindən birinə çevirib.*

# Baramaçılıq və ipəkçilik ənənələri dirçəldilir



Tarixi mənbələrə əsasən hələ V-VI əsrlərdə formalaşan baramaçılıq sahəsindən əldə edilən Azərbaycan ipəyi XII əsrdən etibarən Böyük İpək Yolu ilə Avropa və Asiya ölkələrinə ixrac olunub. Alban tarixçisi Musa Kalankatlı “Alban tarixi” əsərində Kür çayı sahillərində çoxlu tut ağacı olduğunu və bundan ipək parça istehsalında xammal kimi istifadə edildiyini yazır. Məlumdur ki, Şamaxı, Şəki və digər rayonlarda istehsal olunan ipək parçaların şöhrəti dünyaya yayılıb.

Ötən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə baramaçılığın və ipəkçiliyin inkişafında əsaslı dönüş yaranıb. Ulu Öndərin təşəbbüsü ilə qəbul olunmuş “Azərbaycan Respublikasında ipəkçiliyin gələcək inkişafına dair tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Sovetinin 1971-ci il 3 mart tarixli Qərarı baramaçılığın və ipəkçiliyin inkişafına böyük təkan verib, bu sahənin maddi-texniki bazası, sənaye potensialı gücləndirilib. Tut ipəkqurdunun bəslənməsi üçün kümçülərə mövsümi yerlərin ayrılması və yaş baramanın tədarük qiymətinin yüksəldilməsi istehsalçılarda baramaçılığa marağı daha da artırıb, eyni zamanda ipəkçiliyə dair geniş tədqiqatlar aparılıb. 70-80-ci illərdə respublikanın 60 rayonunda baramaçılıq şəbəkəsi yaradılıb ki, bu da istehsal sahəsində ildən-ilə artımla nəticələnib. Mənbələrə əsasən yaş barama istehsalı 1970-ci ildə 3,7 min, 1975-ci ildə 4,4 min, 1980-ci ildə 5,0 min, 1985-ci ildə 5,5 min, 1991-ci ildə isə 5,9 min tona çatdırılıb. Həmin dövrdə ölkəmizdə Elmi-Tədqiqat İpəkçilik İnstitutu, Qax və Gəncə Damazlıq İpəkçilik stansiyaları, 7 barama toxumu zavodu, 30-dək rayon barama qurutxanası, 80-ə yaxın barama tədarükü və ilkin emalı məntəqələri, 4 tinglik təsərrüfatı, 31ipəkçilik idarəsi, Ordubad Baramaaçma Fabriki, Qarabağ və Şəki İpək kombinatları fəaliyyət göstərib. Ordubad Baramaaçma Fabriki, Qarabağ və Şəki İpək kombinatlarında hazırlanan xam, eşmə və cod ipək parçalar dünyanın bir çox ölkələrinə ixrac edilib.

90-cı illərin məlum hadisələrindən sonra Qarabağ İpək Kombinatının yerləşdiyi Xankəndi şəhərinin işğal olunması, Ordubad Baramaaçma Fabrikinin bağlanması və Şəki İpək Kombinatının fəaliyyətində çətinliklər yaranması sonrakı dövrlərdə ölkə ərazisində barama istehsalının kəskin azalmasına səbəb olub.

Son illərdə ölkə başçısının baramaçılığın və ipəkçiliyin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar bu sahənin yenidən inkişafına şərait yaradıb, 2016-cı ildən ipək istehsalının müasir infrastrukturunun yaradılmasına başlanılıb. Görülən tədbirlər nəticəsində 2016-cı ildə 70,7 ton, 2017-ci ildə isə 245,2 ton yaş barama istehsal edilib. Barama istehsalı ilə məşğul olan şəxslərə emal müəssisələrinə təhvil verdikləri baramanın hər kiloqramına görə subsidiyanın verilməsi bu sahəyə marağı artırıb. Dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı” bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, ixrac potensialının artırılması və kənd yerlərində məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynayıb. Dövlət proqramının məqsədi ipəkçiliyin dayanıqlı əsaslarla inkişafına nail olmaq, ipək emalı sənayesinin xammal təminatını yüksəltmək, istehsal edilən məhsulun keyfiyyətini və həcmini artırmaq, yeni təsərrüfat subyektləri yaratmaq, ipək məhsullarının ixrac potensialını gücləndirmək və məşğulluğu artırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün mövcud bağlarda bərpa və yenidənqurma işləri aparmaqla tut (çəkil) ağaclarının məhsuldarlığının artırılması, barama toxumçuluğunun inkişafı, yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması, baramaçılığın və ipəkçilik sənayesinin müasir texnologiyalar əsasında təşkili, ipək məhsulları ixracının dəstəklənməsi və təşviqi diqqət mərkəzində saxlanılır. Dövlət proqramının icrası nəticəsində 2025-ci ilədək yaş barama istehsalı həcminin 6,0 min tona çatdırılması nəzərdə tutulur.

Naxçıvanda da ipəkçilik kənd təsərrüfatında vacib sahələrdən biri olub, bölgədə ipəkçiliyin əsas mərkəzi Ordubad sayılıb. “Naxçıvan tarixi”nin ikinci cildində qeyd edilir ki, XIX əsrin 70-90-cı illərində bu əyalətin 46 kəndində ipəkçiliklə məşğul olublar. Bunların da arasında Ordubad şəhəri, Aşağı və Yuxarı Əylis, Aza, Çənnəb, Vənənd, Əndəmic, Dırnıs, Gənzə, Dəstə, Biləv kəndləri daha çox fərqlənib. 1885-ci ildə Tiflisdə keçirilən ipəkçilik sərgisində 10 yaxşı ipək məhsulu içərisində Ordubad ipəyi seçilib və mükafatlandırılıb. Rayonda barama istehsalı başlıca olaraq iri sahibkarların əlində cəmləşib və onlar iri dövlət və şəhərlərlə geniş ticarət əlaqələri yarada biliblər...



Hazırda muxtar respublikamızda da “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”ndan irəli gələn vəzifələr yerinə yetirilir. Martın 29-da Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyinin əməkdaşlığı çərçivəsində Ordubad rayonunun “Əylis düzü” adlanan ərazisində Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə “Azərbaycan – Türkiyə ipək bağı” salınması bu sahədə atılan mühüm addımlardandır. İki ölkə arasındakı dostluğun və qardaşlığın rəmzi olan, 1,2 hektar ərazidə yeni salınan bağda Türkiyədən gətirilmiş 600-dən artıq tut tingi əkilib ki, bu da gələcəkdə muxtar respublikada baramaçılığın inkişafına mühüm töhfə verəcək.

Məlumat üçün bildirək ki, Ordubad ipəkçiliyin inkişaf etdiyi və ipəyi ilə dünyada tanınan bir bölgə olub. 1926-1927-ci illərdə Ordubad şəhərində kiçik bir otaqda barama toxumu istehsalına başlanılıb, 1932-ci ildə barama toxumu zavodu inşa olunub. Ordubadda Avropa tipli baramaaçma fabriklərinin tikintisinə 1870-ci ildə başlanılıb, Yusif Məmmədəliyev adına Ordubad İpək Kombinatı 1883-cü ildə istifadəyə verilib. Sovet hakimiyyəti vaxtında fabrikdə 1935 və 1969-cu illərdə yenidənqurma işləri aparılıb, müasir avadanlıqlar tətbiq edilib, 1970-ci ildə toxucu sexi istifadəyə verilib. 1987-ci ildə kombinatda 108 ton ipək istehsal olunub. İstehsal olunan xam ipəyin bir hissəsindən cod parçalar hazırlanıb, Şəki, Şamaxı, İsmayıllı və digər şəhərlərə, habelə Rusiya, İsveçrə, İtaliya, Belçika, Yaponiya, Koreya və başqa ölkələrə göndərilib. Muxtar respublikanın blokada şəraitinə düşməsi ilə əlaqədar istehsal həcmi də azalıb.

Tarixən ipəkçilik mərkəzi kimi tanınan Ordubadda vaxtilə baramaçılıqla məşğul olan sakinlərlə görüşüb söhbət etdik. ***Mahir Məmmədov*** vaxtilə valideynlərinin baramaçılıqla məşğul olduğunu, Ordubad İpək Fabrikində işlədiklərini dedi: – 1987-88-ci illərdə mən də həmin fabrikin avtomat sexində usta kimi çalışmışam. O vaxt Ordubaddakı ailələr barama istehsal etmək üçün toxum zavodundan ipəkqurdu toxumu gətirib fabrikdəki anbar, ya da həyətyanı sahələrdə onu becərirdilər. Tut yarpağını bir həftə boyunca ipəkqurdlarına verir, onlar yarpağı yeyib yapışqanlı şirə ifraz edir, bu şirə bərkiyib ipək tellərə dönürdü. İpəkqurdu hazırladığı ipək tellərdən barama toxuyur, özü də baramanın içində qalırdı. Ümumilikdə, iyirmi bir günə barama hazır olurdu. Ondan ipək fabrikində ipək istehsal olunur, Şəkiyə, Gəncəyə, Xankəndiyə, eləcə də dünyanın bir çox yerlərinə göndərilirdi. Orada müxtəlif çeşidli ipək parçalar, paltarlar toxunurdu. Ordubadlıların o vaxt dedikləri sözü hələ də xatırlayıram. Deyirdilər ki, neftə qara, pambığa ağ qızıl deyirlər. Neftin litri 40 qəpik, pambığın kilosu 6 manat, baramanın kilosu isə 26 manatdır. Deməli ki, barama brilyantdır, o da bizim Ordubaddadır.

Müsahibim onu da əlavə etdi ki, bu gün də Naxçıvanda, eləcə də Ordubad rayonunda ipəkçilik, baramaçılıq üçün əlverişli şərait vardır. Dövlətin qayğısı ilə aqrar sahədə uğurla həyata keçirilən islahatlar hesabına unudulan, yaddan çıxan ənənəvi təsərrüfat sahələri bu gün tədricən bərpa olunur. Kütləvi ekoloji tədbirlər zamanı müxtəlif sort tut ağacları əkilməsi, eləcə də ötən günlərdə Əylis düzündə salınan ipək bağı baramaçılığın gələcək inkişafı üçün əsasdır. Ordubadlılar üçün baramaçılıq əlverişli qazanc yolu ola bilər.

Həmsöhbət olduğumuz ***Yusif Murtuzov*** isə qeyd etdi ki, bir vaxtlar Ordubadın kəndlərində əksər adamlar ipəkqurdu saxlayıb becərir, onunla dolanırdılar. Biləv, Aza, Gilançay, Baş Dizə, Düylün və digər kəndlərdə əhalinin əsas məşğuliyyəti ipəkçilik, üzümçülük, tütünçülük, tərəvəzçilik idi. Mənim də valideynlərim baramaçılıqla məşğul olurdular. 10 yaşımdan yarpağın daşınmasında, qurd kollarının qorunmasında və digər işlərdə onlara yaxından kömək edirdim. Bu gün də baramaçılıq kənd və rayonlarda halal yolla pul qazanmaq istəyənlər üçün əsas yollardan biridir. Qısa müddət ərzində düzgün qulluq və zəhmət nəticəsində əldə edilən barama təsərrüfatın digər sahələri ilə müqayisədə xeyli gəlir gətirə bilər. Bu gün dövlətimiz tərəfindən yaradılan hərtərəfli şərait bu sahədə fəaliyyət üçün geniş imkanlar açır.

*Görülən tədbirlər belə deməyə tam əsas verir ki, muxtar respublikada gələcəkdə baramaçılıq və ipəkçilik ənənələrinin bərpası və inkişafında mühüm rol oynayacaq, bu sahədə məşğulluğun təmin olunmasına şərait yaradacaq, bütövlükdə, ölkənin ümumi iqtisadi potensialına mühüm töhfə verəcək.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Uca Yaradan tərəfindən Ramazan ayında vacib buyurulan oruc İslam aləmində, müsəlman dünyasında köklü ənənəyə sahib olaraq hər birimiz üçün mühüm əhəmiyyət kəsb edir. Müqəddəs kitabımız “Qurani-Kərim”ə görə ilin ayları arasında ən müqəddəs və ən şəfqətli ay hesab edilən məhz Ramazan ayıdır. Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan insanları sülhə, əmin-amanlığa, həmrəyliyə dəvət edir, eyni zamanda cəmiyyətimizdə düzgün əməllərə, xeyirxahlığa və savab işlərin təntənəsinə yol açır. İslamın ən güclü dayaqlarından hesab edilən və 11 ayın sultanı kimi seçilib-seçilən Ramazan ayı bu il baharla birlikdə yurdumuza qədəm qoyub. İnsan bədənini istər fizioloji, istərsə də psixoloji cəhətdən təmizləyən, paklaşdıran oruc müasir tibb mütəxəssisləri tərəfindən açıq və qəti şəkildə isbat edilib. Hələ 1400 il əvvəl Peyğəmbər əfəndimizin “oruc tutun, şəfa tapın” hədisi-şərifi də bir daha bu həqiqəti əks etdirir. Hər birimiz bu müqəddəs ayda Yaradanın bizə bəxş etdiyi nemətlərlə sahur və iftar süfrələrimizi bəzəyirik. Bəs imsak və iftar vaxtlarında biz necə qidalanmalıyıq? Hansı yeməklərə üstünlük verməliyik ki, gün ərzində səhhətimizdə hansısa problem yaranmasın, aclıq və susuzluq hissimiz az olsun?*

# Ramazan ayında nələrə diqqət yetirilməlidir...

Bu mövzuda daha ətraflı məlumat almaq üçün sağlam qidalanma üzrə mütəxəssis, fizioloq, həkim-dietoloq ***Pərvanə Qəhrəmanova*** ilə həmsöhbət olduq. O bildirdi ki, oructutmanın həm fizioloji, həm psixoloji, yəni maddi və mənəvi faydaları vardır. Doğru tutulan oruc zamanı insan özünü gümrah, cavanlaşmış hiss edir. Bu il Ramazan ayı baharın gəlişinə təsadüf etdiyi üçün qışdan yaza çıxan vücudda vitamin və mineral çatışmazlığının baş qaldırması mümkündür. Bunun üçün də iftar və imsak yeməkləri çox diqqətli seçilməlidir. Qışın yorğunluğunu aradan qaldırılması və hüceyrələri canlı, aktiv tutmanın yolu təbii qidalar qəbul etməkdən keçir. Paketlənmiş qidalar immun sistemini stimullaşdıran mineral və vitamin çatışmazlığına yol açdığı üçün hüceyrələrimiz passiv və yorğun vəziyyətə düşürlər. Seçimlərimizi bu istiqamətdə həyata keçirsək, Ramazan orucunu tutmaqda çox çətinliklərlə qarşılaşarıq.

Pərvanə həkim deyir ki, halsızlıq, başağrısı və digər simptomlar bizi düzgün oruc prosesindən yayındıra bilər. Bunların baş verməməsi üçün regionumuzun bitki örtüyündən, mövsümi meyvə-tərəvəzlərdən istifadə etmək zəruridir. Oructutmanın fizioloji faydasına gəldikdə isə yapon bioloqu, “Nobel” mükafatına layiq görülən Yoshinori Ohsimu sübut etdi ki, insan hüceyrəsinin özü-özünü bərpaetmə xüsusiyyəti vardır. “Öz-özünü yemə” adlanan bu sistem aclıq zamanı işə düşür, vücudun harasında xəstə, qocalmış, işəyaramayan ölü hüceyrələr, yad bakteriyalar və viruslar varsa, onu həzm edib kiçik hissələrə parçalayır. Hansı ki bu hissəciklərdən yenidən vücud üçün lazımlı olan sağlam hüceyrələr əmələ gəlir. Amma bu yenilənmə düzgün tutulan oruc zamanı baş verir. Uzun illər bu sahədə təcrübə qazanmış mütəxəssislərin fikrincə, Ramazan ayında tutulan 29-30 günlük oruc çökmüş əməliyyat sisteminə format verərək proqram təminatını yeniləməyə bənzəyir. Vücudun bütün toxuma və orqanlarında yenilənmə, cavanlaşma baş verir və immun sistemi güclənir. Biz də düzgün qidalanaraq bu sistemdən maksimum səviyyədə faydalanmalıyıq. Oruc tutarkən iftardan yatana kimi bol maye su, çay, bitki çayı, meyvə suları və sair qəbul etməlisiniz ki, imsak vaxtı iştahalı oyanasınız. İçdiyimiz maye zəngli saat kimi bizi sahura oyadacaq və aclığımızı hiss edəcəyik. İmsakda isə bol proteinli və balanslaşdırılmış formada qidalansaq, bir çox oructutanın yaşadığı halsızlıq, başgicəllənmə, əl-ayaq əsmələri, təzyiq düşmələri yaşamadan sağlam orucun necə gözəl olduğunun fərqinə vararıq.



Pərvanə xanım onu da diqqətimizə çatdırır ki, bir çox insanlar aclığı və susuzluğu çox hiss etmir. Çünki bu hissi yaşamadan ya təzyiq düşür, ya göz qaralır, ya da əl-ayaq əsir. Oructutanların, demək olar, hamısı bilir ki, iftar zamanı çox adamın iştahası olmur. Hələ ayın sonlarına doğru bu hiss daha da güclənir. İftar zamanı ağır ət yeməkləri yeyib, üstündən də bol maye içdikdə axşam saatlarında zəif maddələr mübadiləsi (bioloji saata görə normal haldır) nəticəsində yediyiniz qidalar həzm olunmaqdan çox çürüyürlər. İftardan sonra ağırlaşıb bir kənarda oturmağınız vücudunuzun dilidir və sizə yanlış etdiyinizi anlatmağa çalışır. Gecədən bol maye qəbul edib, faydalı bitki çayları içsək, oruc müddətində heç bir narahatlıq keçirmərik. Mümkün qədər az yağlı yeməklər qəbul edilməlidir, xəmir xörəklərinin, qızartmaların tərkibində sous olan kalorili yeməklərdən imtina edilməlidir. Bir-iki dilimdən artıq çörək yemək məsləhət görülmür.

Həmsöhbətim onu da deyir ki, imsakda 1-2 ədəd soyutma yumurta, qaynadılmış və ya sobada yağsız qızardılmış toyuq, 1-2 dilim kəpəkli və ya çovdar çörəyi, qaynadılmış və ya sobada yağsız qızardılmış qırmızı ət, kərə yağı, kəsmik, pendir yeməklə günboyu tox qalmaq olar. İftar zamanı bol mayeyə üstünlük verilməlidir. Çünki gün ərzində vücudda bərpa və təmizlənmə işləri gedib. Həmin vaxt isə vücuda maye lazımdır ki, toksinləri bədəndən kənarlaşdırsın. C vitamini daxil olmaqla, eləcə də təmiz havanın, bol oksigenin, doğru diafraqma nəfəsinin, normal gecə yuxusunun oruc tutulan müddətdə də rolu əvəzsizdir.

*Pərvanə həkimin söhbətindən gəldiyimiz qənaət budur ki, doğru qidalanma, oruc prosesinə düzgün əməl etmə mənəvi paklanmada ən əsas qaydalardandır. Biz də bütün dünya müsəlmanlarına, eləcə də ölkəmizin vətəndaşlarına müqəddəs Ramazan ayında sağlam ruh, cansağlığı, vəhdət və həmrəylik arzulayırıq. Allah tutulan orucları, edilən duaları qəbul etsin!*

✍ **Süreyya QƏDİMƏLİYEVA**

# Ulu Öndərin Vətəni Naxçıvan istedadlar diyarıdır

## Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə "Bədii yaradıcılıq müsabiqəsi festivalı" keçirilib

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Həmkarlar İttifaqları Konfederasiyası, Naxçıvan Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Naxçıvanda muxtar respublikadakı ali, orta və ilk peşə təhsili müəssisələrinin tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Bədii yaradıcılıq müsabiqəsi festivalı" keçirilib.*

Müsabiqə təşkilatçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri qoyaraq Azərbaycan milli mədəniyyətinin də inkişafında misilsiz xidmətləri olan dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.

Ali təhsil ocağının İncəsənət fakültəsində təşkil edilən açılış tədbirindən əvvəl qonaqlar sərgiyə baxıblar. Ümumilikdə, 50-yə yaxın rəsm əsərinin, dekorativ-tətbiqi sənət, heykəltəraşlıq və bədii tikmə nümunələrinin yer aldığı sərgi qonaqların marağına səbəb olub. "Bədii yaradıcılıq müsabiqəsi festivalı" Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilərək açıq elan edilib. Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev açılış tədbirində çıxış edərək müsabiqə-festivalın keçirilməsində əsas məqsədin tələbələri vətənpərvərlik, mədəniyyətimizə, milli-adət ənənələrimizə sədaqət ruhunda tərbiyə etmək, onların bədii-estetik səviyyəsini yüksəltmək, mədəni həyat tərzinin formalaşdırılması işinə kömək etmək olduğunu bildirib. Vurğulanıb ki, belə müsabiqələr incəsənət və mədəniyyətimizin ayrı-ayrı sənət sahələri üzrə istedadlı gənclərin üzə çıxarılması, onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək vermək baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra müsabiqə-festivala start verilib, onlarla istedadlı tələbə rəqs, musiqi, bədii qiraət üzrə öz bacarıqlarını nümayiş etdirib. İstedadlı tələbələrin müəyyən edilməsi üçün Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Əliqismət Lalayevin sədrliyi ilə Azərbaycan Respublikasının Xalq artistləri – Bakı Xoreoqrafiya Akademiyasının prorektoru Təranə Muradova, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri Samir Cəfərov və Gülyanaq Məmmədova, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Hafiz Quliyev, Azərbaycan Milli Konservatoriyasının müəllimi Arslan Növrəsli və Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğludan ibarət münsiflər heyəti təşkil olunub.

Respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan tələbələrdən ibarət özfəaliyyət yaradıcılıq kollektivləri, dərnək və studiyalar, solo ifaçılar, həvəskar müğənni, rəqqaslar, bədii qiraətçi, musiqiçilər, həmçinin orkestr və ansambllar, rəqs kollektivləri (milli, müasir, bal) və müxtəlif musiqi alətlərində ifa edən fərdi ifaçılar çıxış ediblər.

Tanınmış incəsənət ustalarımızın müsabiqə ilə bağlı fikir və təəssüratlarını qəzetimizin çoxsaylı oxucularına təqdim edirik.

***Əliqismət Lalayev – Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, münsiflər heyətinin sədri:*** – Mən Naxçıvanda uzun illər işləmişəm və bu diyar mənə çox əzizdir. Bu gün burada gördüklərim məni çox təəccübləndirdi,



həm də sevindirdi. Ona görə ki, ölkəmizin dilbər guşələrindən olan Naxçıvan çox dəyişilib, müasirləşib. Festival-müsabiqəyə gəldikə isə onu deyə bilərəm ki, tələbələrin hər biri öz çıxışlarına ciddi və məsuliyyətlə yanaşmışdı. Çox maraqlı ifalar, rəqs nömrələri dinlədik və izlədik. Gənclər bizim mədəniyyətimizin, incəsənətimizin bayraqdarına çevrilib. Bu, ölkəmizdə dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsindən, gənclərin milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər ruhda tərbiyə olunmasından xəbər verir. Onu da qeyd edim ki, festival-müsabiqədə münsiflər heyəti tərəfindən məqbul qiymət alanlar Bakı şəhərindəki Heydər Əliyev Sarayında keçiriləcək Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş möhtəşəm bayram konsertində iştirak edəcəklər.

***Təranə Muradova – Azərbaycan Respublikasının Xalq artisti:*** – Bugünkü müsabiqədə bir daha gördük ki, Ümummilli Liderin Vətəni Naxçıvan istedadlar diyarıdır. Bu istedadları üzə çıxaran, onları peşəkar şəkildə hazırlayıb mədəniyyət və incəsənət sahəsinə bəxş edən Naxçıvan Dövlət Universitetinin Konservatoriyasının, Musiqi Kollecinin yaradıcı heyətinə təşəkkür edirəm. Çox uğurlu, təşkilatçılıq baxımından mükəmməl bir festival-müsabiqə keçirildi. Ümid edirəm ki, münsiflər heyətinin etimad göstərdiyi tələbə-gənclər Bakı şəhərində keçiriləcək bayram konsertində Naxçıvanı uğurla təmsil edəcəklər.

***Gülyanaq Məmmədova – Azərbaycan Respublikasının Xalq artisti:*** – İlk olaraq qeyd edim ki, doğma Naxçıvan diyarında diqqət, sevgi, səmimiyyətlə qarşılandıq. Mən çox şadam ki, Azərbaycan Elm və Təhsil Nazirliyi, Həmkarlar İttifaqları Konfederasiyasının birgə təşkilatçılığı ilə bu



cür möhtəşəm festival-müsabiqə keçirilir. Xüsusən də dövlət universitetləri ilə birgə orada təhsil alan peşəkarlarla deyil, qeyri-ixtisas tələbələrinin də istedad və qabiliyyətləri üzə çıxarılır. Məqsədimiz də incəsənət xadimlərindən təşkil olunmuş münsiflər heyətinin razılığı əsasında bu cür qabiliyyətli tələbələri seçmək və onların marağını nəzərə alıb ustad dərslər keçməkdir. Qeyd edim ki, Azərbaycan istedadlar diyarıdır. Elə bir kəs tanımıram ki, daxilində heç bir istedadı olmasın. Naxçıvanda da tanış olduğumuz istedadlı tələbələr bizi çox qane etdi. İstər yerli, istərsə də əcnəbi tələbələrin çıxışını böyük heyrətlə izlədik. Ötən illə müqayisədə istedadlı tələbələrin çoxluğu da diqqətimizdən yayınmadı. Əslində, Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələr çox şanslıdırlar. Onlara bu cür gözəl ali təhsil ocağında geniş imkanlar yaradılır. Adətən, xarici ölkələrə səfərimiz zamanı bu cür geniş imkanlara malik olan universitetlərlə qarşılaşırıq. Bu gün ölkəmizin ucqar bir regionunda da belə bir ali təhsil ocağı ilə qarşılaşmağımız çox gözəl haldır. Yaradılan şərait,



təbii ki, dövlətimizin milli mədəniyyətimizin inkişafına böyük qayğıdır. Bir sözlə, Naxçıvanı həm gəlib bir daha gördük, həm də gözəl səslər dinlədik, onları kəşf etdik, ürəyimiz, ruhumuz dincəldi. Sanki əhvalımız gözəlləşdi.

***Arslan Növrəsli – Azərbaycan Milli Konservatoriyasının müəllimi:*** – Naxçıvana ilk dəfədir ki, gəlirəm və Ulu Öndərimizin dünyaya göz açdığı bu diyarda olmaq çoxdankı arzum idi. Ona görə də mənim üçün ikiqat sevindirici haldır. Çünki bu gəliş həm də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilinə təsadüf etdi. Bizim gəliş səbəbimiz istedadlı tələbələrin seçimi üçün təşkil olunmuş festival-müsabiqədir. Düşünürəm ki, böyük və lazımlı bir işlə məşğuluq. Bu isə elə-belə deyil. Çünki hər il təşkil olunan bu müsabiqədə istedadlı gənclər tapıntı kimi qarşımıza çıxır. Və düşünürəm ki, bu gün seçdiyimiz istedadlar, gələcəkdə böyük uğurlara imza atacaqlar. Hələ ki, biz bu istedadları, necə deyərlər, ələkdən keçiririk. Bu seçimin gözəl nəticəsi olacağına ümid edirik. Naxçıvan Dövlət Universitetindəki müsabiqə təşkilatçılıq baxımından mükəmməl idi. Naxçıvandakı ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri biri-birindən maraqlı, rəngarəng musiqi, rəqs və bədii qiraət nömrələri ilə çıxış etdilər. Hesab edirəm ki, istedadların üzə çıxarılması, onların mövcud potensialının daha da artırılması, daha böyük musiqi və yaradıcılıq platformalarına çıxarılması baxımından bu cür müsabiqələr olduqca əhəmiyyətlidir. Bugünkü müsabiqədə iştirak edən tələbə-gənclər Azərbaycan mədəniyyətinin, incəsənətinin gələcəyidirlər. Onların hər birinə uğurlar arzu edirəm.

**✍ Aidə İBRAHİMOVA**
**Muxtar RZAZADƏ**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi

### *2023-cü il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edir*

| | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: büdcə hesabına | | ödənişli əsaslarla | | cəmi | o cümlədən: | |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | büdcə hesabına | ödənişli əsaslarla |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə** | | | | | | | | | |
| 5102.01 | Etnoqrafiya və etnologiya | 1 | | | | 1 | | | |
| 5502.01 | Ümumi tarix | 1 | | | | 1 | | | |
| 5503.02 | Vətən tarixi | 2 | | 1 | | 1 | | | |
| 5505.02 | Arxeologiya | 1 | | | | 1 | | | |
| **İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə** | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | | | | 1 | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | | | 1 | | | |
| 6215.01 | Təsviri sənət | | | | | | 1 | 1 | |
| 6401.01 | Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası | | | | | | 1 | 1 | |
| Cəmi: | | 7 | | 1 | | 6 | 2 | 2 | |

**Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:**

*-Müəssisə rəhbərinin adına ərizə;*
*-Kadrların şəxsi-qeydiyyat vərəqi;*
*-Tərcümeyi-hal;*
*-2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*-İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*-İş yerindən xasiyyətnamə;*
*-Çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;*
*-Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*-Şəxsiyyəti təsdiq edən sənədin surəti;*
*-Xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, TestDaf, DALF əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd;*

Sənədlər 10 aprel – 10 may 2023-cü il tarixlərdə hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat $09^{00}$-dan $18^{00}$-dək AMEA Naxçıvan Bölməsinin binasında, Elm və təhsil şöbəsində qəbul edilir.

***Ünvan: Heydər Əliyev pr. 76***
***Əlaqə telefonu: 545-34-96***
***e-mail: doktorant.nb@mail.ru***

## Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçiriləcək "Dahilik zirvəsi" esse müsabiqəsinin elanı

"Şərq qapısı" qəzeti redaksiyası, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Mətbuat Şurası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə tələbələr arasında "Dahilik zirvəsi" mövzusunda esse müsabiqəsi elan edir.

***Müsabiqənin keçirilməsində məqsəd***

Müsabiqənin keçirilməsində məqsəd dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfli və mənalı ömür yolu, müstəqil Azərbaycanın qurucusu kimi ölkəmizin inkişafındakı misilsiz xidmətlərinin tələbə-gəncliyin təqdimatında geniş oxucu kütləsinə çatdırmaqdan, xüsusilə tələbə jurnalistlərin bu sahədə yaradıcılıq fəaliyyətinə dəstək verməkdən ibarətdir.

***Müsabiqədə iştirak***

Muxtar respublikanın ali, orta və ilk peşə ixtisas təhsili müəssisələrinin tələbələri müsabiqədə iştirak edə bilərlər.

***Qiymətləndirmə meyarları***

*- mövzunun ictimai-siyasi ideya yeniliyi və əhəmiyyətliliyi;*
*- yaradıcı yanaşma, dil və üslub xüsusiyyətləri, işlərin bədii səviyyəsi və keyfiyyəti;*
*- mövzunun əhatə olunması, araşdırma və əsaslandırma;*
*- materialın informasiyalılıq səviyyəsi.*

***Müsabiqə materiallarına qoyulan tələblər***

Müsabiqəyə təqdim olunan yazılar "Şərq qapısı", şəhər və rayon qəzetlərinin birində dərc edilməli, yaxud "Nuhçıxan" İnformasiya Agentliyində və ya digər rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında yerləşdirilməlidir.

Müsabiqə materiallarında "Dahilik zirvəsi" esse müsabiqəsinə təqdim edilir qeydi göstərilməlidir.

***Mükafatlandırma***

Esse müsabiqəsinə təqdim olunan materiallar 3-I, 3-II, 3-III və 3 nəfər həvəsləndirici yerləri tutmuş müəlliflər təşkilatçılar tərəfindən müvafiq diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.

***Müsabiqə materiallarının qəbul qaydaları***

*1. Yazının dərc olunduğu mətbuat orqanının (qəzet, jurnal) nömrəsi və elektron variantı (CD diskdə) – 1 nüsxə*
*2. İnformasiya agentliklərində və internet media resurslarında verilən yazıların çap (A4 kağızda) və elektron variantı (CD diskdə) – 1 nüsxə*
*3. Şəxsiyyət vəsiqəsinin surəti.*

Müsabiqə materialları 11 aprel 2023-cü il tarixdən 6 may 2023-cü il tarixə qədər rəsmi iş günləri saat $10^{00}$-dan $18^{00}$-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı "Şərq qapısı" qəzetinin redaksiyasına şəxsən təqdim olunmalıdır.

***Ünvan: Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14***
***"Şərq qapısı" qəzetinin redaksiyası***
***Əlaqə telefonu (036) 544-52-52***

### *İtmişdir*

Nəcəfov Eyvaz Adil oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmməd Sədi Xəlil oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

0116 inventar nömrəli texniki pasport və MH-0037061 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

000586 inventar nömrəli texniki pasport və MH-0037061 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***info@serqqapisi.gov.az***

**Qeydiyyat №: 575**

***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:*** **Məcid Əkbərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 256**